www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 fevral 2016-cı il Çərşənbə № 31 (6352) Qiyməti 60 qəpik

**Xəbər**

**Ölkə tütünçülüyünün acı tüstüsü-ayda 90 milyonu kimlər qazanır?**

yazısı səh.11-də

**Gündəm**

**Cavid Qurbanov "Yeni Müsavat"a geniş müsahibə verdi**



"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri: "Dəmir yolunu qəbul edəndə belə bərbad vəziyyətlə üzləşəcəyimi ağlıma gətirməzdim"

yazısı səh. 8 və 9-da

**Elmira Axundovanın məhkəməyə verdiyi məşhur publisist danışdı**

yazısı səh.4-də

*Novella Cəfəroğlu:*

**"Onda gərək biz Avropa Şurasından çıxaq"**

yazısı səh.5-də

**Bakıda tələbə qız məktub yazıb özünü öldürdü**

yazısı səh.14-də

**XİN Konqresdəki sanksiya layihəsi barədə açıqlama verdi**

yazısı səh.6-da

**Milyarder ölkənin milyonçu nazirinin qəpik davası**

yazısı səh.11-də

**Müxalifətin antiböhran təklifləri birmənalı qarşılanmır**

yazısı səh.7-də

**Putin devrilərsə...**

yazısı səh.12-də

**Deputat bələdiyyə sədrlərinə "torpaq alverçisi" dedi**

yazısı səh.13-də

**Avtomobilə aldığınız etibarnamələr etibarsız ola bilər**

yazısı səh.14-də

**Əli İnsanovun müxalifət liderliyinə iddiası-ekspertlər danışır**

yazısı səh.3-də

**TAP-a və TANAP-a pul tapa biləcəyikmi?**

yazısı səh.13-də

## Amerikadan Azərbaycana Qarabağ zərbəsi

# AŞ PA-DA QARABAĞ QƏTNAMƏSİNİN QƏBULUNU NULAND ƏNGƏLLƏYİBMİŞ - ŞOK İDDİA

Azərbaycan üçün olduqca mühüm əhəmiyyətli sənədin tormozlanmasında ABŞ-ın müstəsna rol oynaması haqda ciddi iddia var; günün sualı: Qarabağ təşəbbüskarlığı bütünlüklə Amerikaya keçsə, problem ədalətli həllini taparmı?..




yazısı səh.5-də

## Həbsdəki köməkçisindən İlhaməyə ikinci zərbə: "Səni bitirəcək səs yazısı var"

Mehriban Hüseynova türmədən yeni sensasion məktub yolladı- xalq artistini Qurd Cəbrayıla bənzətdi

yazısı səh.15-də



**İqbal Ağazadə müxalifətin birliyini niyə istəmədiyini izah etdi**

yazısı səh.10-da



Fazil Mustafa

**Deputatdan həbsdəki partiyadaşı ilə bağlı məmurlara şok ittiham**

yazısı səh.7-də



**Nemət Pənahlı Qobustan həbsxanasından çıxmaq istəmir**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016




# Rusiya azərbaycanlı iş adamını beynəlxalq axtarışa verdi

**Rusiya hüquq-mühafizə orqanları rüşvətxorluqda təqsirləndirilən azərbaycanlını axtarışa verib. APA-nın məlumatına görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib. Məlumatda qeyd olunur ki, 52 yaşlı Elçin Mahmudov rüşvətxorluqda ittiham olunur. Rusiya hüquq-mühafizə orqanları onun barəsində dövlətlərarası axtarış elan edib və saxlanılması üçün İnterpola müraciət olunub.**

Saytın əldə etdiyi məlumata görə, E. Mahmudov Rusiyada "Ponek-E" və "Asfin" şirkətlərinin rəhbəridir.

Məsələ ilə bağlı moderator.az-a açıqlama verən politoloq Zərdüşt Əlizadə E.Mahmudov erasının artıq başa çatdığını və bu mənada iki dövlət arasında münasibətlərin gərginləşməsi üçün əsas olmadığını vurğulayıb:

"E.Mahmudov məsələsi artıq qapanıb. O, vəzifədən uzaqlaşdırılıb. Hesab edirəm ki, E.Mahmudovun Səudiyyə Ərəbistanı və İsraillə bütün mümkün əlaqələri və bu əlaqələrin İrana verdiyi ehtimal edilən ziyanla bağlı hansısa fakt aşkarlanarsa belə, bu, İranla Azərbaycan arasında gərginliyə səbəb olmayacaq. Çünki bütün bunlar artıq geridə qalıb. Əgər bu təhlükə gələcəklə bağlı olsaydı, o zaman baş verənlərin iki dövlət arasında gərginliyə səbəb olacağını iddia etmək olardı".

# Mənsimovun tankerində fövqəladə hadisə: 1 ekipaj üzvü öldü, 2-si ağır durumda

**Azərbaycanlı oliqarx Mübariz Mənsimovun "Palmali" şirkətlər qrupuna məxsus tankerdə zəhərli qazdan kütləvi zəhərlənmə baş verib və bir heyət üzvü ölüb. Daha 3 heyət üzvü xəstəxanaya yerləşdirilib. Virtualaz.org xəbər verir ki, hadisə İtaliyanın Vasto limanı istiqamətində baş verib.**

İtaliya mənbələrinin yaydığı xəbərə görə, "Palmali Shipping" şirkətinə məxsus, Rusiya bayrağı altında üzən "Araz River" tankeri Vasto limanını tərk edəndən sonra ekipaj üzvlərindən üçü göyərtədə təmizləmə işləri aparıb. Bu zaman kimyəvi maddələrdən istifadə olunub və toksik qazların ətrafa yayılması nəticəsində bir ekipaj üzvü yerindəcə keçinib. Qalan ikisi isə ağır vəziyyətdə xəstəxanaya aparılıb. İnsidentin dənizin məhz hansı rayonunda baş verdiyi məlum deyil, lakin baş verənlərdən sonra tanker yenidən Vasto limanına geri qayıdıb.

# ABŞ-ın PYD ilə bağlı bəyanatı ciddi etiraz doğurub

**ABŞ Türkiyə və terror təşkilatları arasında seçim etməlidir. Virtualaz.org saytının "TRT Haber" telekanalına istinadən verdiyi məlumata görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. O hesab edir ki, ABŞ-ın Suriyadakı "Demokratik İttifaq" (PYD) kürd partiyasının terror təşkilatı olmaması barədə bəyanatı sağlam düşüncəyə ziddir.**

Nazir əlavə edib ki, Türkiyə PYD və PKK terrorçularının sıx əməkdaşlıq etməsi faktları barədə dəfələrlə məlumat verib.

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" Media Qrupunun kollektivi Xalid Kazımlıya bibisi Şövkət xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Evlənmək istəyən 54 nəfərdə QİÇS tapıldı




**Ötən ilin yayından bu günə qədər nikaha daxil olmaq istəyən 94 min 400 nəfər tibbi müayinədən keçirilib. Səhiyyə Nazirliyindən aznews.az-a verilən məlumata görə, ölkədə nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsi tətbiq olunduğu andan 31 dekabr 2015-ci il tarixlərinədək müayinələrdən keçmiş 84 min 600 nəfərdən bəzilərində müxtəlif xarakterli infeksiyalar aşkar olunsa da, ümumilikdə müayinədən keçən və nikaha daxil olmaq istəyən şəxslərin əksəriyyətinin sağlamlıq durumunun qənaətbəxş olduğu aşkar olunub.**

Keçən il müayinədən keçmiş 5 min 534 nəfərdə talassemiya daşıyıcılığı, 239 nəfərdə sifilis, 54 nəfərdə isə QİÇS aşkarlanıb.

Bu ilin ilk ayında 9 min 800 nəfər tibbi müayinədən keçib. Yanvar ayında müayinələrdən keçmiş 246 nəfərin talassemiya daşıyıcılığı, 22 nəfərdə sifilis, 1 nəfərdə isə QİÇS tapılıb.

"Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Qanunun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktları təsdiqi ilə əlaqədar, 1 iyun 2015-ci il tarixindən etibarən nikaha daxil olmaq istəyən vətəndaşlar mütləq tibbi müayinədən keçməlidirlər.

Nazirlər Kabineti tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydaları təsdiqlənib, tibbi müayinə olunmalı xəstəliklərin siyahısı müəyyənləşdirilib. Bu məqsədlə səhiyyə müəssisələrində zəruri şərait yaradılıb.

Tibbi müayinə və məsləhətlər nikaha daxil olmaq istəyən şəxslərin və ya onlardan birinin yaşayış yeri üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş dövlət və bələdiyyə tibb müəssisəsində həyata keçirilir. Tibbi müayinənin keçirilməsi və məsləhətlərin verilməsi pulsuz aparılır.

# Lalə Şövkətdən xəbər var

**Azərbaycan Liberal Partiyasının (ALP) lideri Lalə Şövkət hazırda Bakıdakı evindədir və səhhəti ilə bağlı heç bir problem yoxdur.**

Bu barədə modern.az saytına ALP sədri Əvəz Temirxan məlumat verib. Onun sözlərinə görə, manatın devalvasiyası hər bir vətəndaş kimi Lalə Şövkətə də təsir edib.

Əvəz Temirxan Lalə Şövkətin gündəlik olaraq analizlərlə məşğul olduğunu da deyib.

"Lalə xanım gündəlik 9-10 saat vaxtını ayırıb iqtisadi, siyasi prosesləri analiz edir. Lalə Şövkətin fikirləri partiyamızın fikirləri ilə üst-üstə düşür".

O, ALP liderinin manatın ucuzlaşmasından sonra Azərbaycan xalqının düşdüyü vəziyyətdən çox narahat olduğunu da bildirib.

"Lalə Şövkət devalvasiyadan sonra xalqın düşdüyü vəziyyətdən çox narahat olub".

# Hökumət qeyri-islam icmalarına hər il yarım milyon dollar ayırır

**"Bizdə sünni və şiələr arasında toqquşma yoxdur. "Heydər" Məscidində sünnilərlə şiələr vəhdət namazı qılırlar. Məsələn, Bakıda katolik keşişi ilə pravoslav keşişi də bir yerdə oturur. Sual oluna bilər ki, Azərbaycandakı multikultural mühitin kökündə nə dayanır? Bunun kökündə Azərbaycan xalqının mentaliteti və tərbiyəsi dayanır".**

APA-nın məlumatına görə, bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Qış məktəbi"nin tələbələri ilə görüşündə deyib. O bildirib ki, Azərbaycanda uşağa tərbiyə verərkən ona nifrət etmək öyrədilmir: "Burada dövlətin siyasəti də mühüm rol oynayır. Bakıda iki böyük sinaqoq var və onları dövlət tikib. Bakıda böyük katolik kilsəsini dövlət tikib, icmaya verib. Hər il qeyri-islam icmalarına yarım milyon dollar vəsait ayırırıq. Bundan başqa, məscidlər, sinaqoqlar və kilsələr elektrik enerjisindən güzəştlər alır".




# "Fitch" Azərbaycanın reytinqinə yenidən baxacaq

**"Fitch Ratings" beynəlxalq reytinq agentliyi fevral ayının 26-da Azərbaycanın kredit reytinqinə yenidən baxmağı planlaşdırır. "İnterfaks" xəbər verir ki, bunu "Sberbank Investment Research"in analitikləri bildiriblər.**

"S&P yanvar ayının 29-da Azərbaycanın kredit mövqeyini bir pillə "BB+" qədər endirib. "Moody's" fevralın 5-də Azərbaycanın kredit reytinqini "Ba1" pilləsinə qədər azaldaraq onu gələcəkdə də mövqeyinin endiriləcək mövqeyə yerləşdirib", - "Sberbank Investment Research"in analitikləri tərəfindən hazırlanmış "Borc bazarları bu gün - 9 fevral 2016-cı il" analitik icmalında qeyd edilir.

Bu qərar neftin qiymətinin ucuzlaşmasının ölkə iqtisadiyyatına mənfi təsirinin nəticələri və onun maliyyə sabitliyi ilə şərtləndirilir. Reytinqin aşağı düşməsi iqtisadiyyatda kəskin çökmə və büdcə ödəmələrinə, eləcə də ödəmə balansına təzyiq nəticəsində meydana gəlib.

"Biz ehtimal edirik ki, o da Azərbaycanın reytinqini (hazırda reytinq "BBB"dir) azaldacaq. "Fitch"in bunu planlaşdırdığı zamandan öncə edəcəyi də istisna deyil", - icmalda bildirilib.

# ASİMDER: Terrorçu PKK-nın liderləri işğal altında olan Dağlıq Qarabağa yerləşdirilir

**"Ermənistan Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə terrorçu PKK qruplaşması liderlərini yerləşdirir".**

"Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, bu haqda Əsassız erməni iddialarına qarşı mücadilə Beynəlxalq İctimai Birliyi (ASİMDER - Uluslararası Asılsız Ermeni İddialarıyla Mücadele Derneği) məlumat yayıb.

Məlumata görə, son zamanlar Türkiyənin PKK-ya qarşı apardığı əməliyyatlarla bağlı terrorçuların liderləri Kandildəki (eyni adlı dağın İraqdakı hissəsindən) düşərgədən Dağlıq Qarabağa köçürülürlər.

# Əsəd PKK-ya 4 təyyarə silah göndərdi

**Bəşər Əsədin nəzarətində olan Suriya ordusu Qamışlıdakı "PKK-nın Suriya Qolu"na (PYD) 4 təyyarə dolu silah və sursat yardımı göndərib. Publika.az bildirir ki, bu barədə İranın "Fars" informasiya agentliyi məlumat yayıb.**

Məlumata görə, Suriya ordusu 4 təyyarəyə yüklənmiş silah-sursatı fevralın 7-də axşam saatlarında Haseke əyalətinin Qamışlı hava limanı vasitəsilə PYD-yə çatdırıb. Bəşər Əsəd tərəfindən silah-sursat yardımının edilməsində əsas məqsəd kimi PYD-nin strateji mərkəzi sayılan El-Şadadi qəsəbəsinin İŞİD-dən geri alınması göstərilir.

# Azərbaycanlı iqtisadçıya qarşı sui-qəsd çağırışı

**"İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) son illər Cənubi Qafqaz və Orta Asiyanın "ən güclü beyin mərkəzi" seçilməsi fəaliyyətimizə bir sıra radikal qrupların "diqqətini" daha da artırıb. Belə ki, Rusiyanın radikal "Pleskov Slavik Qrupu" CESD-ni yəhudilərin yaratdığı mərkəz adlandıraraq, onun sədrini zəhərləməyə çağırmaqdan belə çəkinməyib".**

Modern.az saytının məlumatına görə, bu haqda CESD-in rəhbəri, iqtisadçı-alim Vüqar Bayramov özü məlumat verib.

O, "Pleskov qrupu"nun son hesabatından sitat gətirib: "CESD-in sədri Vaşinqton Universitetinin məzunu Amerika şinelindən çıxmış Vüqar Bayramov səciyyəvi Xəzər yəhudisidir. Əgər onunla yemək yesəniz, sadəcə, onu zəhərləyin".

V.Bayramovun məsələyə sonrakı reaksiyası belə olub:

"CESD olaraq bəyan edirik ki, regionun ən güclü beyin mərkəzi olmağımız heç bir başqa millətlərlə bağlılığımız deyil, bizim tədqiqatlarımızın keyfiyyətinin nəticəsidir. Biz Azərbaycan təşkilatı olmağımızla qürur duyuruq və hər zaman ölkəmizin və regionun iqtisadi siyasətinə pozitiv təsir etməyə çalışırıq. Bizim fəaliyyətimizi antirus və ya hansısa digər xalqa qarşı olması anlamına gəlməməlidir.

Xoşdur ki, bizim Rusiyanın bir neçə beyin mərkəzi ilə sıx əməkdaşlıq münasibətlərimiz var. CESD Qərb ölkələri ilə yanaşı, Yaponiya, Rusiya, Çin, Cənubi Koreya kimi ölkələr ilə ciddi əməkdaşlığa malikdir. CESD sədrini zəhərləmək isə düşünürük ki, yalnız radikalların ağlına gələ bilər".

# Taleh Bağırovun məhkəməsi təxirə salındı

**Taleh Bağırovun məhkəməsi təxirə salınıb. Bu haqda modern.az saytına onun hüquqlarını müdafiə edən Cavad Cavadov məlumat verib.**

O qeyd edib ki, əvvəlcə məhkəmənin vaxtı dəyişdirilib, sonra təxirə salınıb:

"Taleh Bağırovla bağlı verdiyim məhkəmə nəzarəti qaydasında şikayət üzrə bu gün Nəsimi Rayon Məhkəməsinə qərarın elan olunması saat 16-00-a təyin edilmişdi, lakin məhkəmə bir saat əvvələ keçirildi.

Həmin saatda sədrlik edən hakim Babək Pənahov bildirdi ki, sorğulara cavab verilmədiyindən bu iş üzrə obyektiv qərar qəbul etmək mümkün deyil. Bu səbəbdən iş 19.02.2016-cı il tarixə saat 15-00 təxirə saldı".

C.Cavadov müdafiə tərəfi olaraq qeyd edib ki, tutulan şəxsin işgəncəyə məruz qalmasına dair qaldırılan məsələ təxirə salınmadan, işgəncə izlərinin itməməsi üçün təcili araşdırılmalı, məhkəmə tibb ekspertizası təyin edilməlidir: "Lakin bunlar edilməyib və belə vəziyyətdə ədalətli məhkəmə araşdırılmasından artıq söz gedə bilməz".

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Nemət Pənahlı Qobustan həbsxanasından çıxarılır

## Məhbus siyasətçinin cəzası başa çatır; anası Rauf Mirqədirovla görüşüb; Pərviz Həşimli Ali Məhkəmənin Plenumuna müraciət edib



Nemət Pənahlı

**Hazırda həbsdə olan Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının fevralın 23-də Qobustan həbsxanasındakı cəza müddəti başa çatır. Məhbus siyasətçi cəzasının qalan 11 ayını əvvəllər saxlanıldığı 17 saylı cəzaçəkmə müəssisəsində başa vuracaq.**

Bu barədə musavat.com-a N.Pənahlının həyat yoldaşı Həcər Pənahlı məlumat verdi: "Uzunmüddətli görüş vaxtı idi. Normal görüş oldu. Fevralın 23-də 17 saylı "zon"a qaytaracaqlar. Nemət həmin vaxta hazırlaşır. Vəziyyəti hazırda normaldır. Yenə də tək saxlanılır. Müəyyən səbəblərə görə kamerasındakı məhbus yoldaşını çıxarıblar. Fevralın 23-də Nemətin Qobustandakı cəza müddəti başa çatır. Ondan sonra orada saxlanılması üçün heç bir əsas yoxdur. 17 saylı cəzaçəkmə müəssisəsinə qaytarılmasını istəmir. Çünki əvvəl orada narazılığı olmuşdu. Nəticədə rəisin təqdimatı ilə Qobustana köçürülmüşdü. Nemət həmin "zon"a qaytarılmaması üçün müraciət də edib. Lakin razı olmayıblar. Deyiblər ki, qərara uyğun hansı "zon"dan gəlibsənsə, ora da qaytarılmalısan. Qanun bunu tələb edir".

Milli azadlıq hərəkatının öncül simalarından olan Nemət Pənahlı 2011-ci il yanvarın 8-də tutulub, xuliqanlıq və qəsdən sağlamlığa az ağır zərər vurma ittihamı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.

O, Qobustan həbsxanasına 17 saylı cəzaçəkmə müəssisəsi rəisinin 2013-cü ilin yayındakı təqdimatı əsasında köçürülüb.



Rauf Mirqədirov

**"Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirova oxunan hökmdən apelyasiya şikayətinin verilməsindən isə 20 gün ötür. Hələ də jurnalistin prosesinin nə zaman başlayacağı məlum deyil. Vicdan məhbusunun anası Rəfiqə İsayeva gələn həftə prosesin başla ehtimalının yüksək olduğunu bildirdi:** "Şikayətdə bəzi düzəlişlər olmalı idi. Ona görə məhkəmənin vaxtı bilinmir. Raufun özü ilə fevralın 3-də görüşdüm. Çox əsəbi olub, hədsiz dərəcədə darıxır. Deyir ki, burada saxlanılmağımın səbəbini bilmirəm. Bu iş üzrə digər ittiham olunan şəxslər azadlıqdadır. Raufa saxlanıldığı yerdə normal münasibət var. Səhhəti də qaydasındadır. Başında tez-tez ağrılar olur. Onu da dərmanlarla yola verir".

**"Bizim Yol" qəzetinin əməkdaşı Pərviz Həşimli Ali Məhkəmənin Plenumuna müraciət edib. Jurnalist qanunsuz həbsdə olduğunu, onu həbs edən MTN-çilərin vəzifələrindən uzaqlaşdırıldığını, ya da həbs olunduqlarını deyir. Bu barədə onunla görüşən vəkil Bəhruz Bayramov məlumat verib:** "Pərvizlə görüşdüm. Ona qarşı böyük haqsızlıq var. Çünki onu həbs edənlərin özləri hazırda həbsxanadadırlar. İşi aparan müstəntiq işdən çıxarılıb. Pərviz Həşimli bütün bunlara rəğmən hələ də həbsdə saxlanılmasını ədalətsizlik sayır. Dekabrda azad olunacağına çox ümid edirdik. Ali Məhkəmənin Plenumuna müraciət etmişik. Yəqin ki, baxılma prosesi 4-5 ay çəkəcək. Nəticəsinin necə olacağını deyə bilmərik. Çünki Ali Məhkəmədə oktyabrın 27-də iştirakımız olmadan prosesin keçirilməsini və qərarın qüvvədə saxlanılmasını unutmamışıq".

❑ Cavanşir ABBASLI

# Əli İnsanovun müxalifət liderliyinə iddiası-ekspertlər danışır



## Elxan Şahinoğlu: "Əli İnsanov məhkəmələrində hətta Nelson Mandeladan misal gətirirdi ki, eybi yox, mən də həbsdə yatıb çıxaram və dövlətin də başına keçərəm"

## Sərdar Cəlaloğlu: "O, həbsdən çıxdıqdan sonra ciddi müxalifətçilik etsə, bir proses başlatsa, hansısa xarici güclərin diqqətini cəlb edə və dəstəyini qazana, müəyyən qədər irəliləyə bilər"

**Sabiq səhiyyə naziri Əli İnsanovun həbs müddətinin başa çatmasına 8 ay qalır. Vaxt azaldıqca, sabiq nazirin azadlığa çıxandan sonra hakimiyyətə qarşı çox ciddi müxalif qüvvəyə çevriləcəyi məsələsi ətrafında müzakirələr çoxalır.**

Əli İnsanov həbsə düşdükdən indiyə qədər iqtidara qarşı barışmaz mövqeyi ilə müxalifət düşərgəsində özünə qarşı vaxtilə mövcud olmuş mənfi münasibəti 180 dərəcə müsbətə doğru dəyişə bilib. Hər halda, bunu müxalifət partiyalarının onu açıq şəkildə müdafiə etməsi, hətta şəklini qərargahlarında başlarının üstünə vurmaları da göstərir.

Müxalifət düşərgəsinin sabiq nazirdən gözləntiləri, onun müxalifətin lideri olacağı barədə də fikirlərin yayılmasına səbəb olub. İllərdir müxtəlif səbəblərdən uğursuzluq girdabına düşmüş müxalif elektoratın özünə daha effektli, daha güclü, əlaqələri geniş olan, sirli qaynaqlardan güc götürdüyünü düşündüyü liderlər axtarması yeni deyil. 2013-cü ildə prezident seçkiləri öncəsi Milli Şura avantürası ilə irəli çıxan dramaturq Rüstəm İbrahimbəyov müxalifət elektoratının əhval-ruhiyyəsinə bariz nümunədir. Bu düşərgə onu dərhal bağrına basdı, özünə lider etdi.

Lakin İbrahimbəyov hamını məyus etdi, on minlərlə insanın inamı ilə oynayıb, bir kənara çəkildi. Bəs Əli İnsanov faktoru ilə Rüstən İbrahimbəyovu müqayisə etdikdə hansı oxşar və fərqli məqamlar ortaya çıxır? Ümumiyyətlə, onların müqayisəsi mümkündürmü?

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, Rüstəm İbrahimbəyovla Əli İnsanovu müqayisə etsək, bir sıra fərqli cəhətlər ortaya çıxır. Rüstəm İbrahimbəyovun arxasında Rusiya dururdu. Onun siyasətə gəlişi, müxalifət düşərgəsinin başına keçmək cəhdi Moskvanın proyekti idi. Məqsəd Azərbaycan iqtidarına təzyiq eləmək və Rusiyanın buradakı maraqlarını təmin etmək idi:** "Rusiya həmin proyekti işə salmaqla öz maraqlarını təmin elədi. Əli İnsanov isə arxasında hansısa xarici güc durmadan şəxsən özü bu hakimiyyətə qarşı məhkəmədə və həbsxanada olduğu müddətdə sərt mövqe ortaya qoyub. Ona görə də onu Rüstəm İbrahimbəyovla müqayisə eləmək olmaz. Əli İnsanov 10 ildən artıqdır həbs cəzası çəkir, hakimiyyətdən əfv diləməyib, həbs olunmamaq üçün ölkədən qaçmayıb. Rüstəm İbrahimbəyov isə bir saat da olsun həbsdə olmayıb, həbs olunub-olunmayacağı dəqiq bəlli deyil, lakin ölkəyə qayıtmağa risk etmir".

**ADP sədri onu da qeyd etdi ki, Əli İnsanov həbsdən çıxdıqdan sonra ciddi müxalifətçilik etsə, müəyyən qədər irəliləyə bilər:** "Haqq üçün deyək ki, Əli İnsanov indiyə qədər hakimiyyətdən kənarlaşdırılmış və cəzalandırılmış adamlar içərisində özünü ən prinsipial və ləyaqətli aparanlardan biridir. Lakin Əli İnsanovun Azərbaycan demokratiyası ilə heç bir əlaqəsi yoxdur. O, nə xalq hərəkatında, nə Elçibəy hakimiyyətində iştirak edib, nə də sonrakı dövrdə Azərbaycanın demokratikləşməsi üçün nə isə edib. Əli İnsanov demokratiya uğrunda mübarizə aparıb həbs olunmayıb. Sadəcə, hakimiyyətin başında dayanan şəxslə münasibətlərinə görə həbs olunub. Əli İnsanovdan da başqa cəzalanan məşhur məmurlar olub və bəzi adamlar onların müxalifətə keçəcəyini, müxalifətə çox böyük xidmətlər göstərəcəklərini deyiblər. Amma təcrübə göstərdi ki, o adamlar müxalifət mövqeyinə keçsə də böyük gözləntiləri doğrultmayıb. Lalə Şövkət, Rəsul Quliyev, Eldar Namazov hakimiyyətdən istefa verib müxalifətə keçdilər. Lakin zaman göstərdi ki, onlar xalq hərəkatından çıxmış müxalifət liderlərindən heç də artıq hansısa bir uğura imza ata bilmədilər. O baxımdan Əli İnsanovun müxalifət düşərgəsinə keçsə də, demokratik dəyişikliklərə nail ola biləcəyinə inanmıram".

**S.Cəlaloğlunun fikrincə, Azərbaycan xalqının faciəsi ondan ibarətdir ki, o liderlər ki, demokratik liderlərdir, xalq onları lider kimi görə bilmir. Çünki demokratik lider xalqın içində olur, bütün günü xalqın gözü qarşısında olur və adiləşir:** "Azərbaycan xalqı hələ keçmiş sovet şüurundan uzaqlaşmadığı üçün liderləri özündən yuxarıda, hökmə, sərvətə malik bir adam kimi təsəvvür edir. Əli İnsanovda insanlar bunu gördükləri üçün onun lider olacağını, böyük dəyişikliklərə məhz onun nail olacağını düşünür. Müxalifət sıralarında bu cür düşünən insanlar da bu kateqoriyaya uyğun lider axtarışındadır. Ona görə Əli İnsanov adı hallanır. Halbuki bu gün ənənəvi müxalifət partiyalarının liderləri arasında ən zəif hesab elədiyimiz bir adamla Əli İnsanovu tərəziyə qoysaq, həmin adamın əslində daha böyük demokratik lider olduğu ortaya çıxacaq. Demokratik lider olmaq elə də asan deyil. Bunu hər adam bacarmır. Əli İnsanov demokratik müxalifət lider gələcəksə, o, Azərbaycanda ən böyük demokratik dəyərlərə malik bir adam, demokratik dəyərləri bölüşən adam olmalıdır. Əli İnsanov belə ola biləcəkmi? Yəqin ki, bu suala heç kim əminliklə "ola biləcək" cavabını verə bilməz. Təkcə uzun müddət həbsxanada olmaq və hakimiyyətə əyilməməklə demokratik təfəkkür formalaşmır. Mən Əli İnsanovun bugünkü müxalifət liderlərindən daha böyük, dəyişikliklərə gətirəcək işlər görə biləcəyinə inanmıram. Rəsul Quliyevlə Lalə Şövkət müxalifətə keçdikdən sonra müxalifətə, demokratiyaya nə veribsə, Əli İnsanov gəlişi ondan artığını verə bilməz".

**Siyasi şərhçi Elxan Şahinoğlu da bildirdi ki, Rüstəm İbrahimbəyovun 2013-cü ildə demokratik müxalifətin liderinə çevrilməsi prosesi Rusiya faktoru ilə bağlı idi. Bu prosesdə Rusiyanın planları dayanırdı:** "Rüstəm İbrahimbəyov və onun rəhbərlik etdiyi Ziyalılar Forumu öncə müxalifəti birliyə çağırdı, sonra elə bir təbliğat aparıldı ki, özü müxalifətin liderinə çevrildi. Axırda da müxalifəti yarı yolda buraxaraq Azərbaycandan getdi və hələ də gəlməyib. Əli İnsanov bu gün müəyyən qədər şanslı görünür. Çünki bütün yuxarıda qeyd etdiyim məhrumiyyətləri, mərhələləri o keçdi və bu günədək mövqeyindən geri çəkilməyib. Həbsdə ola-ola açıq elan edib ki, radikal müxalifət funksiyasını daşıyacaq. Əli İnsanov Müsavat və AXCP ilə ortaq məxrəcə gələ bilməyəcəksə, ola bilsin ətrafdan kimlərləsə ittifaq yaratmaq işinə girişsin. Bu, Rəsul Quliyev də, Eldar Namazov da ola bilər. Tamamilə fərqli adamlar da ola bilər. Hər bir halda yəqin ki, Əli İnsanov həbsdən çıxandan sonra özünə tərəfdar toplamağa çalışacaq.

Əli İnsanov bir qədər fərqli fiqurdur. Onunla bərabər Fərhad Əliyev də həbs olundu. Amma Fərhad Əliyev sanki sındı. Əli İnsanov isə həbs olunduqdan indiyədək hakimiyyətə meydan oxuyur. Əli İnsanov məhkəmələrində hətta Nelson Mandeladan misal gətirirdi ki, eybi yox, mən də həbsdə yatıb çıxaram və dövlətin də başına keçərəm. Bu fərqlilik də onun hakimiyyətə müxalif olan qüvvələr və protest elektoratı arasında nüfuzunu artırır. Müxalifət partiyaları bəllidir ki, müxtəlif səbəblərdən zəifləyiblər və güclü liderə də ehtiyacları var. Amma mən inanmıram ki, bütün müxalifət Əli İnsanovun liderliyini qəbul edəcək. Əli İnsanov həbsdən çıxandan sonra özü ayrıca olaraq yeni müxalifət hərəkatı yaratmaq və gücə çevrilmək iddiasını ortaya qoya bilər. Uğur qazanıb-qazanmayacağı gələcəkdə bəlli olacaq. Hakimiyyətin də əlində Əli İnsanova təsir etmək, onu cəmiyyətin gözündən salmaq üçün müəyyən alətlər var. Nazir olduğu dövrü, səhiyyənin zamankı vəziyyətini onu nüfuzdan salmaq üçün gündəmə gətirəcəklər".

❑ Etibar SEYİDAĞA



# Ağlar qoyulan aqrar sektor

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İstənilən xəstəliyin radikal və effektli müalicəsi sözsüz ki, diaqnozun vaxtında dəqiqləşdirilərək təsdiqlənməsindən keçir. Azərbaycan iqtisadiyyatı da neçə vaxtdır xəstə durumdadır, ancaq onun "müalicəsi" səmərə vermir, çünki "xəstə yiyəsi" - hökumət müstəqil ekspertlərin belə qoyduğu diaqnozu israrla danır, qəbul etmək istəmir; hər şey qaydasındadır, heç bir böhran-filan yoxdur deyir.**

Nəticədə durum günü-gündən ağırlaşır, "xəstəlik" daha dərinə işləyərək "xronikaya" keçir. Xroniki xəstəliklərin tədavisi isə qat-qat çətin olur. Hər halda, hökumət məmurlarının və iqtidaryönlü bir çox şəxslərin cəmiyyəti yuxuya verməyə yönəlik açıqlamaları buna xidmət edir - diaqnozu bacardıqca pərdələməyə. Guya ölkədə ciddi etirazlar yoxdursa, narahatlığa da əsas yoxdur, ola bilməz.

Təbii ki, ilğımdır və iqtisadi yaralarımız bununla sağalmaz. İkinci yandan, manat "üzməyə" başlayandan keçən 50 gündə prezidentin imzaladığı antiböhran xarakterli neçə-neçə fərman və sərəncamlardan tamamən ayrı qənaət hasil olur. Belə çıxır ki, ölkə rəhbərinin fərqində olduğu situasiya komanda üzvlərinə ciddi görünmür. Deməli, vəziyyəti kamifuljay eləməklə onlar prezidentə əslində "ayı xidməti" göstərirlər...

Savadlı iqtisadçılara görə isə, mövcud vəziyyətdən çıxmaq üçün təcili şəkildə ona adekvat addımlar atılmalı, o sırada büdcənin neft asılılığından qurtulması yönündə islahatlar aparılmalıdır. Söhbət öncəliklə qeyri-neft sektorunu - sənayeni, xüsusən də aqrar sahəni dirçəltməkdən, dövlətin idxaldan, məxsusən də kənd təsərrüfatı məhsullarının idxalından asılılığını azaltmaqdan gedir.

Bunu həm də Qarabağ boyda problemi olan bir ölkənin ərzaq təhlükəsizliyi diktə edir. Fəqət, ən ağlar durumda da elə aqrar sektordur. Yeri gəlmişkən, təzəlikcə məlum olub ki, indiyədək kənd təsərrüfatının inkişafına ayrılan vəsaitlər yerli məmurlar tərəfindən yeyilib; bu və başqa səbəblərdən də aqrar islahatlar baş tutmayıb.

Ancaq siz Baş Prokuror yanında Korrupsiya qarşı Mübarizə İdarəsinin ötən il açıqladığı hesabata diqqət etsəniz, orada iri çaplı bircə məmurun, icra başçısının belə tutulmadığına əmin ola bilərsiniz. Niyə belə bir şey yoxdur? Ona görə ki, kəndliyə, fermerə çatası həmin vəsaiti yerli məmur təkbaşına mənimsəməyib, mənimsəyə də bilməzdi - bunu bilməyən varmı ki?

Məsələ də ondadır ki, nə qədər ki, Azərbaycanda cinayət olacaq, cəza olmayacaq, yaxud cəza ola-ola cinayət olmayacaq - ölkənin iqtisadi durumu yaxşıya dəyişməyəcək, islahatların yalnız görüntüsü qalacaq. Özümüzü aldatmayaq, gerçək islahatlar üçün müstəqil məhkəmələrin və hüquq sisteminin varlığı əsas şərtlərdən biridir.

Qısası odur ki, iqtisadi islahatlar yalnız siyasi, hüquqi islahatlarla yanaşı gedərsə, nəticələr ola və ölkə onu izləyən "Holland sindromu"nun ağır nəticələrindən yayına bilər. Bu, 2 x 2 qədər bəsit bir həqiqətdir. Qalır onu qəbul eləmək.

Belə bir etiraf gecikdikcə ölkədə təkcə intiharlar deyil, oğurluqlar, iqtisadi və hətta siyasi cinayətkarlıqlar da artacaq. Hansı təmayülü ki, dekabrın 21-dən sonra artıq qabarıq müşahidə elməkdəyik.

Diaqnozu, gerçəyi danmaq - nə qədər ağır da olsa - ölkəyə baha başa gələ bilər, sözümüzün canı budur.

# Elmira Axundovanın məhkəməyə verdiyi məşhur publisist danışdı

## Firuz Haşımov: "Prezidentin sözlərinə məhəl qoymurlar, iqtidarla xalq arasında qəsdən uçurum yaradırlar"



**Deputat Elmira Axundova Milli Azadlıq Hərəkatının öncüllərindən olan Firuz Haşımovu məhkəməyə verib. 78 yaşlı tanınmış publisist deputatın qəzəbinə onun oğlu Həbib Axundov haqda mətbuatda dərc etdiyi fikirlərinə görə gəlib. Hazırda deputatın iddiası üzrə Yasamal Rayon Məhkəməsində araşdırma gedir. Məhkəmə F.Haşımovun fikirlərində təhqir elementləri axtarmaqdadır.**

Məhkəmə çəkişməsi ilə bağlı Elmira Axundovanın fikirlərini öyrənmək üçün ona telefon açdıq. Lakin zənglərimiz cavabsız qaldı.

**Cavabdeh Firuz Haşımov iddianın əsassız olduğunu bildirdi:** "Mən həmişə dövlətçiliyə xidmət etmişəm. Hər kəsi prezidentin ətrafında birləşməyə səsləmişəm. Buna görə başıma gəlməyən müsibətlər olmayıb. İndi də Elmira Axundova oğlu Həbib Axundov haqda yazdıqlarımı təhqir bilir. Mən həqiqətləri ifadə etmişəm. Mən nə yazmışam? Yazmışam ki, camaatdan alınan pullar geri qaytarılmalıdır. Yazmışam ki, belə hərəkətlər heç kimə başucalığı gətirmir. Bu təhqirdir?

Elmira Axundovadan soruşmuşdum ki, o hansı qonorarların hesabına neçə-neçə imarət ucaldıb, mənzillər alıb, 5 bahalı maşın saxlayır. Niyə müvafiq orqanlar Elmira Axundovadan soruşmurlar ki, deputat maaşı ilə nə cür olub ki, belə cəh-cəlalı qurub? Londondan vurub Dubaydan çıxan oğlu nə vaxt xalqın pulunu qaytaracaq?

İstər özünün, istərsə də oğlunun qəbahətlərini nə vaxtsa yazdığı bəsit, bədii-publisistik dəyəri o qədər də yüksək olmayan dırnaqarası romanlarla, mədhiyyələrlə örtməyə çalışır. Elmira Axundovanın oğlu Həbib üzr istəyib, yüz min manat da cərimə verməliyəm. Məhkəmə sonra bu 100 mini 5 min manata endirdi! Hörmətli prezidentin məmur balalarının harınlığına, azğınlığına münasibətini xalq bilir. Mən də yazmışam ki, məmləkətin indiki durumunda məmur balalarının harınlığı əsl xəyanətdir, bunlar firavan həyatlarını, bahalı maşınlarını sosial şəbəkədə nümayiş etdirməklə kasıb-kusubu təhqir edir.

Axundovun əməlləri haqda qəzetlərdə xeyli material gedib. Deputat balası maliyyə fırıldağı qururaq neçə-neçə ailənin həyatını cəhənnəmə döndərib. Pulları, var-yoxları əllərindən çıxmış insanlar respublikanın nüfuzlu təşkilatlarına dəfələrlə müraciət ediblər, ətraflı məlumatlar verilib, vacib dəlillər, sübutlar və təkzib edilməyən faktlar təqdim olunub. "Yeni Müsavat" qəzetində, saytlarda Elmira Axundova və oğlunun bahalı maşınları, təmtəraqlı evləri, villaları barədə yetərincə danışılıb, səs yazılarından belə yayılıb. Bütün bunlara baxmayaraq, Elmira Axundova, onun oğlu barəsində tədbir görülməyib. Özünü elə aparır ki, sanki bütün günahlar qapılara düşən, gündə ora-bura çağırılan, hədələnən, adam yerinə qoyulmayan, pulları əllərindən çıxmış, intihar həddinə çatdırılmış zavallılardadır".

**Firuz Haşımov deyib ki, onu və aldadılmış insanları məhkəməyə çəkməklə Elmira Axundova ictimaiyyətin diqqətini yayındırmağa çalışır:** "Guya mən onu məqalələrimdə təhqir etmişəm, elə buna görə də Prezidentin sözlərinə məhəl qoymurlar, iqtidarla xalq arasında qəsdən uçurum yaradırlar. Bu fikirlərdə təhqir var?"

**F.Haşımov düşünür ki, deputat oğlunun hərəkətləri ölkə rəhbərliyindən gizlədilir:** "Mən qəzetiniz vasitəsilə prezidentə müraciət edirəm. Prezidentdən təvəqqe edirəm ki, deputat balasının müflis edib küçələrə saldığı insanların dadına çatsın. İnanıram ki, obyektiv araşdırma aparılsa, Elmira Axundova bir saat belə Milli Məclisdə otura bilməyəcək".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Jurnalistin işi üzrə məhkəmə-növbəti prosesdə həkimlər ifadə verəcək

## Rasim Əliyevin ölümündən 6 ay ötdü

**Fevralın 9-da Bakı Ağır Cinayətlər Məhkəməsində öldürülən jurnalist Rasim Əliyevin işi üzrə təqsirləndirilən Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayevin növbəti məhkəmə prosesi keçirilib. Proses başlamamışdan əvvəl hakim Eldar İsmayılov çıxış edərək, ötən prosesdə yaşanan insidentdən danışıb. O, işə obyektiv baxıldığını bildirib.**




Zərərçəkmiş tərəfin vəkili Əsabəli Mustafayev çıxış edərək, səhiyyə naziri Oqtay Şirəliyevin məhkəmədə ifadə verməsi ilə bağlı vəsatət qaldırıb: "Səhiyyə naziri məhkəməyə gəlib, bu iş üzrə istintaq zamanı prokurorluğa göndərdiyi məktubunu əsaslandırmalıdır. Oqtay Şirəliyevin məktubunda göstərilənlərə Rasim Əliyevi müayinə etmiş həkimin istintaqa ilkin ifadəsi arasında ziddiyyət var. Oqtay Şirəliyev birbaşa özü gəlib burada bu ziddiyyətə aydınlıq gətirməlidi".

Vəkilin vəsatəti təmin olunmayıb.

Ardınca təqsirləndirilən şəxslərdən Camal Məmmədovun vəkili Şəmsəddin Quliyevin növbəti vəsatəti olub. O, Rasim Əliyevi müayinə və müalicə etmiş həkimlərin, eləcə də mərhum jurnalisti sonuncu dəfə xəstəxanada görən şəxslərin məhkəmədə əlavə şahid qismində dindirilməsi barədə vəsatət verib. Bu vəsatət də təmin olunmayıb.

Qərardan sonra Quliyev iş üzrə rəy vermiş ekspertlərin dindirilməsi ilə bağlı vəsatət qaldırıb. Vəkilin əvvəlki vəsatətlərindən fərqli olaraq, bu vəsatəti qismən də olsa, təmin olunub. Vəkil bütün ekspertlərin dindirilməsini istəsə də, məhkəmə yalnız ikisinin dindirilməsini məqsədəuyğun sayıb. Növbəti prosesdə həkimlərin ifadə verəcəkləri gözlənilir.

Məhkəmə fevralın 16-da davam edəcək.

Qeyd edək ki, fevralın 9-da mərhum jurnalistin ölümündən 6 ay ötüb. Məhkəmə prosesindən sonra onun yaxınları, həmkarları qəbrini ziyarət ediblər.

Xatırladaq ki, R.Əliyev ötən il avqustun 8-də döyülüb və ertəsi gün xəstəxanada vəfat edib. Onun işi üzrə beş nəfər, həmçinin hadisədə adı hallanan "Qəbələ" futbol klubunun sabiq kapitanı Cavid Hüseynov həbs edilib. Futbolçunun işi ayrı icraata götürülüb. İşə Səbayel Rayon Məhkəməsi baxır. Hazırda bu proses də davam edir.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016

# Amerikadan Azərbaycana Qarabağ zərbəsi

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sonuncu qış sessiyanda Azərbaycanla bağlı iki qətnamə layihəsindən birinin keçməməsi barədə kifayət qədər yazılıb. Xəbər verildiyi kimi, Böyük Britaniyadan olan məruzəçi Robert Uolterin hazırladığı və Azərbaycanın milli maraqlarına tamamilə cavab verən, ən əsası da beynəlxalq hüquqa söykənən Qarabağa dair sənəd cəmi 4 səs fərqlə təsdiqlənməmişdi.**


Viktoriya Nuland

## AŞ PA-da Qarabağ qətnaməsinin qəbulunu Nuland əngəlləyibmiş - şok iddia

Azərbaycan üçün olduqca mühüm əhəmiyyətli sənədin tormozlanmasında ABŞ-ın müstəsna rol oynaması haqda ciddi iddia var; günün sualı: Qarabağ təşəbbüskarlığı bütünlüklə Amerikaya keçsə, problem ədalətli həllini taparmı?..

Əksər təhlilçilərə görə, səbəblər ATƏT-in Minsk Qrupu həmsədrlərinin sessiya ərəfəsində verdiyi məlum ermənipərəst bəyanat, Azərbaycan tərəfinin yetərli diplomatik-siyasi fəallıq göstərməməsi və arxayınçılığı, erməni tərəfinin və erməni lobbisinin isə əksinə, sənəd əleyhinə quruma üzv ölkələrin siyasiləri səviyyəsində din amilini də qabartmaqla güclü kampaniya aparması olub. Cəmi 4 səsin çatışmaması bunu dolayısıyla bir daha təsdiq edir.

Yada salaq ki, Rusiyadan olan 18 nəfərlik nümayəndə heyəti sessiyada (səsvermədə) iştirak eləməyib. Aydındır ki, iştirak eləsəydi, ermənilərin mövqeyi daha güclü olacaqdı. Ayrı sözlə, bu, unikal bir şans idi ki, Qarabağa dair sənədin səsvermədən keçməsi üçün minimum fəallıq ortaya qoyulmaqla nəticəyə nail olunsun. Əfsus ki, ortaya qoyulmadı. Azərbaycan yalnız ikinci sənədin - Sərsəng su anbarı ilə bağlı qətnamənin qəbulu ilə təsəlli tapmalı oldu.

Doğrudur, ikinci sənəddə də Ermənistan birmənalı şəkildə işğalçı kimi göstərilib və ondan işğal elədiyi ərazilərdən tezliklə çıxmaq tələb olunur. Ancaq bilavasitə Dağlıq Qarabağ münaqişəsinə və onun həlli prinsiplərinə həsr olunan birinci sənəd qəbul edilsəydi, ölkəmizin məsələdə manevr imkanları daha güclü, dilimiz daha uzun olardı - o cümlədən ermənipərəst həmsədrlər qarşısında. Bununla həmçinin vasitəçiləri çox güclü fakt qarşısında qoya bilərdik.

***

Bu arada AŞ PA-dakı sənədin keçməməsinin başqa yeni, ilginc detalları məlum olub. Həmin detalları ermənipərəst ABŞ konqresmeni Adam Şiff "Horizon Life" verilişi çərçivəsində "Asbarez" erməni nəşrinin baş redaktoru Ara Xaçatryana müsahibəsində açıqlayıb. Onun sözlərinə görə, ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nuland Dağlıq Qarabağa dair qətnamənin qəbul olunmamasında müstəsna rol oynayıb.

**"Hələ AŞ PA-da sənədin müzakirə olunmasından qabaq mən ABŞ Dövlət Departamentinə və regional səfirlərdən birinə müraciət eləmişdim. Müraciətdə qeyd eləmişdim ki, bu, Azərbaycanı müdafiə edən birtərəfli sənəddir. Həm səfir, həm də Nuland bəyan eləmişdilər ki, bunun üstündə işləyəcəklər"**, - deyə konqresmen qeyd edib.

Şiff əmin olduğunu bildirib ki, məhz bu səylərin nəticəsində Qarabağa dair qətnamə layihəsi keçməyib. **"AŞ PA sessiyasına su ilə bağlı daha bir qətnamə layihə təqdim olunmuşdu - hansı ki, qəbul olunub. Ancaq hesab edirəm ki, qətnamələrdən daha destruktiv olanı keçməyib"** - əlavə edib ermənipərəst Konqresmen.

***

Bu yerdə onu da qeyd edək ki, Adam Şiff Amerika erməni lobbisinə bağlı şəxs kimi ölkəmiz əleyhinə zaman-zaman başqa təşəbbüs və aktlarda da iştirakçı olub, müəlliflik edib. Azərbaycanı sevməyən, onun ərazi bütövlüyü və suverenliyinə əsla hörmət eləməyən bu adam - Adam Şiff yəqin ki, bundan sonra da öz anti-Azərbaycan əməlindən qalmayacaq. Lakin onun qətnamə ilə bağlı söylədikləri bəzi yeni və ciddi suallar ortaya çıxarır.

Suallardan biri budur ki, əgər ABŞ dövlət səviyyəsində Azərbaycanın ərazi bütövlüyünün təsbit olunduğu bir sənədin qəbulunu ermənilərə görə əngəl yaradırsa, o zaman biz necə əmin ola bilərik ki, Qarabağa dair təşəbbüskarlıq günün birində bütünlüklə Rusiyadan onun özünə keçsə, Vaşinqton məsələnin həllində daha ədalətli mövqe tutacaq, necə deyərlər, Rusiyaya "rəhmət oxutdurmayacaq"?

Xatırladaq ki, bir neçə il öncə BMT-də Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi zərurətini özündə ehtiva edən Qarabağ sənədi səsə qoyularkən ABŞ məsələdə guya "neytral vasitəçi" imicini saxlamaq üçün Rusiya və Fransa ilə birgə bitərəf qalmışdı. Azərbaycan sözsüz ki, bunu da unutmayıb. Nulandla bağlı son iddia isə bir daha rəsmi Bakının Qarabağ ixtilafının həlli üçün başqa, daha effektli və ədalətli format axtarışına çıxmaqda nə qədər haqlı olduğunu göstərir.

***

Əlavə edək ki, məlum olaylardan sonra Azərbaycan prezidenti İlham Əliyev ABŞ-ın da təhsil olunduğu Minsk Qrupu həmsədrlərini konflikti həll eləmək istəyində olmamaqda ittiham eləmişdi. **"Onların bugünkü fəaliyyəti tamamilə mənasızdır. Onlar nəinki işğalçı Ermənistana təzyiq göstərmirlər, üstəlik, onu hər cür problemlərdən qoruyurlar. Baxın, onların təxribatçı hərəkətləri AŞPA-dakı son dinləmələrdə nəyə gətirdi"**, - deyə prezident şərt formada bəyan eləmişdi.

**Bu açıqlama Amerika diplomatiyasının "ağır topları"ndan sayılan Viktoriya Nulandın qətnamə əleyhinə işləməsi ilə bağlı iddialar kontekstində yeni və xüsusi aktuallıq kəsb edir.**

❑ **Siyasət şöbəsi**




# "Onda gərək biz Avropa Şurasından çıxaq"

## Azərbaycan Avropa Məhkəməsinin qərarlarının icrasından imtina edir?

**Azərbaycanda Avropa Məhkəməsinin qərarlarının icrasından imtinanı nəzərdə tutan qanun hazırlanır. Bu barədə ötən həftədən xəbərlər yayılıb.**


Novella Cəfəroğlu

Bildirildiyinə görə, Azərbaycan üzv olduğu insan hüquq və azadlıqlarının müdafiəsi üzrə dövlətlərarası orqanın qərarının icrası qaydalarını dəyişdirir. "Report" xəbər verib ki, Milli Məclisin yaz sessiyasında bununla bağlı yeni qanunun qəbul edilməsi nəzərdə tutulub. Yeni qanun konstitusiya qanunu statusunda olacaq. Hətta o da qeyd olunur ki, parlamentin yaz sessiyasının qanunvericilik işləri planına "İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə dövlətlərarası orqanın qərarının Azərbaycan tərəfindən icrasının mümkünlüyü məsələsinin həlli haqqında" Konstitusiya qanunu layihəsinin müzakirəsi və qəbulu məsələsi daxil edilib. Məlumata görə, qanun layihəsini Milli Məclisin Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsi hazırlayacaq, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirə olunacaq və daha sonra Milli Məclisdə müzakirəyə çıxarılacaq.

Qeyd edək ki, Azərbaycan insan hüquq və azadlıqlarının müdafiəsi üzrə bir neçə dövlətlərarası orqanın üzvüdür. Bunlar İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Avropa Şurası, BMT və başqa qurumlardır.

Bəzi mənbələr hesab edir ki, Azərbaycanın qanunvericiliyə əlavələr etməsi erməni hərbçinin qətlində günahlandırılan zabitimiz Ramil Səfərovun ermənilər tərəfindən Avropa İnsan Haqları Məhkəməsinə verilməsinə cavabdır. Yəni hesab olunur ki, Avropa Məhkəməsi Azərbaycanın qarşısında R.Səfərovla bağlı hansısa tələb qoyarsa, Bakı onun icrasından imtina etsin. Çünki bu, Azərbaycan üçün çox prinsipial məsələdir.

Ancaq digər mənbələr qanuna düzəlişlərin sırf daxildəki problemlər, Azərbaycandan Avropaya ünvanlanan şikayətlərlə bağlı olduğu qənaətindədir. Avropa Məhkəməsi Azərbaycanla bağlı onlarla qərar qəbul edib və onların bir çoxu, xüsusilə də maddi təzminat hissəsi icra olunub. Xatırladaq ki, İnsan Haqları üzrə Avropa Məhkəməsi tərəfindən Azərbaycanla bağlı 80-dən artıq qərar qəbul edilib, onların təqribən 55 faizində Əsas İnsan Hüquq və Azadlıqları haqqında Avropa Konvensiyasının müddəalarının pozuntusu müəyyən olunub. Azərbaycanın Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov bir müddət əvvəl demişdi ki, Konvensiyanın pozuntusu müəyyən edilən işlər üzrə Azərbaycan hökuməti təxminən 400 min avro məbləğində cərimələnib. Qərarlar üzrə şikayətçilərə ödənilməli olan kompensasiyaların vaxtında ödənildiyini deyən Ç.Əsgərov bildirib ki, ödənişlə bağlı indiyədək heç bir problem yaranmayıb. "Avropa Məhkəməsinin qərarı qəbul edildikdən 3 ay sonra qüvvəyə minir. Kompensasiyalar vaxtında ödənilməzsə, faizlər hesablanır. Bizdə ödənişlə bağlı problem yoxdur. İndiyədək Avropa Məhkəməsinin qərarları üzrə şikayətçilərə 400 min avroya yaxın təzminat ödənilib", - səlahiyyətli nümayəndə deyib. "Həmin işlərdə pozuntular namizədliyin qeydə alınmaması, namizədliyin ləğv edilməsi, ya da seçkilərin nəticələrinin ləğv edilməsi ilə bağlıdır. Artıq Avropa Məhkəməsinin icraatında seçkilərlə bağlı şikayətlər qalmayıb", - o bildirib.

Səlahiyyətli nümayəndə qeyd edib ki, ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu ilə bağlı şikayətlər daha çox məhkəmə baxışında tərəflərin iştirakının təmin olunmaması ilə bağlıdır. Göründüyü kimi, cərimənin məbləği kifayət qədər böyükdür. Çoxdan idi ki, hakim partiya təmsilçiləri Avropa Məhkəməsində dövlətin cərimələnməsi ilə bağlı qərarlara etiraz etməklə yanaşı, bu cərimə sanksiyalarının hətta yanlış qərarları ilə dövləti pis vəziyyətdə qoyan hakimlərin üzərinə yönəldilməsini təklif edirdilər. Elə bu yaxınlarda siyasi məhbus kimi təqdim olunan Hilal Məmmədovla bağlı 15 min avroluq cərimə sanksiyası qəbul edildi və icrası üçün Bakıya yönəldildi. Xüsusilə də maliyyə problemlərinin olduğu bir ərəfədə Avropadan cərimələnmə ilə bağlı qərarların gəlməsi sözsüz ki, hökuməti narahat edir. Bu mənada alternativlərə əl atılması anlaşılan hesab edilir.

Qeyd edək ki, Milli Məclisin fevral ayının 12-də keçiriləcək plenar iclasının gündəliyi açıqlanıb və burada sözügedən məsələnin müzakirəsi nəzərdə tutulmur.

Qəribəsi odur ki, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri belə bir təşəbbüsdən xəbərsiz olduqlarını dedilər və suallarımızı cavablandırmaqdan imtina etdilər.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirdi ki, belə bir qanun qəbul olunsa belə, onun icrası mümkün deyil:** "Biz Avropa Şurasının üzvüyük, bunu unutmamalıyıq. Əgər biz Avropa Şurasının üzvüyüksə, quruma üzv qəbul olunarkən üzərimizə öhdəliklər götürüb ora qol çəkmişiksə, Avropa Məhkəməsinin qərarlarını icradan imtinamız mümkün deyil. Onda gərək ilk növbədə Avropa Şurasından imtina edək. Hətta 6 ay müddətində rusları Avropa Şurasından məhrum etmişdilər, amma Rusiya özü də Avropa İnsan Haqları Məhkəməsinin qərarlarını icradan imtina etmədi. Belə bir presedent mənə məlum deyil".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016



# Yol əhvalatı

Zamin HACI
zaminhaci@gmail.com

**Sizi deyə bilmərəm, ancaq şəxsən mənim ürəyim ağrıyır. Kinoda Kərbəlayının dediyi kimi, "heç Yadullanın müsibəti belə olmamışdı". Kasıbçılığın üzü qara olsun. Heç yaraşardımı bizim nazirlərə "Naz-Lifan" sürmək təklif edilsin? Olimpiya stadionunda Ledi Qaqaya qulaq asan qaqalar indi ora sünnət toyuna gedəcəklər. Ancaq iki gün qabaq gördüyüm sərəncam lap faciəvi idi. Pulumuzun qurtardığını bilirdim, bu qədəri ağlıma gəlməzdi. Özünüz baxın, yalan deyirəmsə manatın gününə düşüm.**

Fevralın 8-də prezidentin sərəncamı ilə Qobustan rayonunda Təklə-Sündü-Xilmili avtomobil yolunun tikintisi üçün dövlət büdcəsindən pul ayrılıb. Yol 15 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirəcəkmiş. İşləri "Azəryolservis" görəcəkdir. Hə, "bəyi çox intizarda qoymayaq", oxucular isə bizim bəylərimizdir, ağalarımızdır, nə buyursalar can-başla etməliyik, xüsusən qəzeti pul verib alan oxucuya hörmətimiz böyükdür. Uzun sözün qısası, sərəncama əsasən bu boyda yolun qayırılmasına... 700 min manat ayrılacaqdır!

Vay-vay... Kaş heç bu sərəncamı oxumazdım, oxuyan gözüm kor olaydı. A kişilər, 700 min manata da yol olar? O yolla getmək olar? Gedənin qıçı qırılar. O cür ucuz yol insanı nəinki Romaya, heç köhnə komaya aparıb çıxarmaz.

Biz görmüşük yolun hər kilometrinə minimum 1 milyon manat ayrılsın. Suötürücü keçidlərin qayrılmasına, müasir işıq dirəkləri, fosforlu yol işarələri basdırılmasına, qara kəhrəba kimi asfalt, platin-qızıl qarışıqlı çınqıl tökülməsinə kisə-kisə pul getməlidir. İndi bu cüzi pulla heç "Azəryolservis"in müdiri uşağına pampers ala bilməz, gəl gör yuxarıların haqqını versin. Özü də bu, devalvasiyaya uğramış manatla xərcdir, dollara çevirəndə heç 350 min dollar eləmir.

Müqayisə üçün prezidentin devalvasiyadan qabaqkı bənzər sərəncamına baxaq. Rayon Quba. Tarix 2014, 28 mart. Yeddi min əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Quba-Küpçal-Küsnət avtomobil yolunun tikintisinin DAVAM ETDİRİLMƏSİNƏ *(fərqləndirmə mənimdir, yəni bu projenin hamısı deyil, cüzi hissəsidir, qabaq başqa pullar da ayrılıb, tapıb yazmağa həvəs olmadı, nəyinizə lazımdır ki, bunlar onsuz yeyib doyublar - Z.H.)* 5,3 milyon manat ayrılmışdı.

Deyə bilərsiniz Quba Qobustandan çətin rayondur, o üzdən yolun bir kilometri iyirmi dəfə baha olub. Deyin, yiyəsiz ölkədir onsuz da, hamı ağzına gələni danışır, kimdən əskiksiniz? Ancaq bizim də cavabımız var. Tarix 2014, 8 iyun. Abşeron rayonu, 5 yaşayış məntəqəsini birləşdirən Hökməli-Qobu-Güzdək-Puta yolu. Ayrılan vəsait 7,6 milyon manat.

Yenə il 2014, 6 noyabr. Lənkəran rayonu. 3 yaşayış məntəqəsini birləşdirən Liman-Nərimanabad-Balıqçılar avtomobil yolunun bu dəfə də tikintisinin DAVAM ETDİRİLMƏSİNƏ 3,6 milyon manat ayrılıb.

Çox saya bilərdim, məncə, bəsdir. Həmin yol pulları adətən rayon icra hakimiyyətlərinə ayrılırdı, onlar da iki maşının yan-yana güclə keçdiyi darısqal cığırlar qayırıb vəsaiti rahatca basıb yeyirdilər. Bəs indi necə olacaq? 5 milyon dollara qayrılan yolu 350 min dollara qayırmağa hünər lazımdır.

Söhbət yoldan düşmüşkən, bir mənasız ümidə də münasibət bildirək. Hakimiyyət nümayəndələri Azərbaycanın guya Çinlə Avropa arasında önəmli nəqliyyat qovşağı olmasını tez-tez vurğulayır. Guya İpək yolu təzədən işə düşəcək, tacirlər yollarımızdan istifadə edəcək, biz də kalan pul qazanacağıq. Prezidentin köməkçisi Əli Həsənovun təzəlikcə dedikləri bu mənada tipikdir: "Hər il Çindən Avropaya və əksinə 300 milyon tondan çox yük daşınır. Azərbaycan bunun 10 faizini qəbul edib ötürə bilsə, əldə olunan gəlirlər çox böyük perspektivlər açacaq".

Belə baxanda qəşəng səslənir. Hətta inandırıcı gəlir: Çindən qatar gəldi, Xəzərdən bərə ilə keçdi, Gürcüstan və Türkiyə üzərindən Avropaya girdi və sairə. Biri də var malı Çində gəmiyə vurub Hind okeanını, Atlantik okeanını dolanıb Avropaya çatasan. Uzun görünür. Gəmi qatardan azı iki həftə gec çatır. Ancaq hər şey belə sadə olsa nə vardı? Məsələ ondadır ki, bir qatarla uzağı 100 vaqon dartmaq olar. Lokomotivin gücü bu sahədə çox məhduddur. Okeanda isə çağdaş konteyner daşıyan gəmilər bundan qat-qat çox yük aparır. Misal üçün, "Maersk" firmasının bir dəfəyə 18 min konteyner aparan gəmiləri var! Özü də bu gəmilər Süveyş kanalından çox rahat keçirlər.

İndi özünüz baxın: 18 min konteyneri 2 həftəyə çatdırmaq sərfəlidir, yoxsa 150 konteyneri 1 həftəyə?

# XİN-dən Konqresdəki sanksiya layihəsi barədə açıqlama

## Hikmət Hacıyev: "ABŞ Konqresində də Azərbaycanın kifayət qədər dostları var"

**ABŞ Helsinki Komissiyasının rəhbəri, ABŞ Konqresinin nümayəndələr Palatasının üzvü Kristofer Smitin Azərbaycan və onun hakimiyyətinə qarşı hazırladığı və Helsinki Komissiyasında qəbul edilən "Azərbaycanda Demokratiya Aktı" adlı qanun layihəsi ətrafında yaşanan ajiotaj xeyli vaxtdır səngiyib. Layihə Helsinki Komissiyasında qəbul edilən zaman bildirilirdi ki, yanvarın sonu, fevralda Konqresdə müzakirəyə çıxarıla bilər.**



Artıq fevralın birinci on günlüyü də başa çatır, ancaq sözügedən məsələdən heç bir xəbər yoxdur. Belə bir təəssürat yaranır ki, sanksiyaları nəzərdə tutan qanun layihəsi gündəmdən çıxarılır və hətta Konqresdə müzakirəyə də çıxarılmaya bilər.

Sanksiyaları nəzərdə tutan layihənin arxa plana keçdiyi təəssüratının yaranmasının ABŞ prezidentindən Azərbaycan prezidentinə Vaşinqtonda keçiriləcək nüvə sammitinə dəvətin göndərilməsi ilə bağlı, Azərbaycanın Vaşinqton üçün əhəmiyyətli olması, eyni zamanda Azərbaycan Milli Məclisinin üzvü Rövşən Rzayevin ABŞ-da



demokratiyanın və insan haqlarının durumu ilə bağlı hazırladığı-qarşılıqlı sanksiyaları nəzərdə tutan qanun layihəsi ilə əlaqədar olduğu iddiaları var. Bəzi iddialarda isə sanksiya layihəsinin demək olar ki, gündəlikdən çıxdığı deyilir.

Bəs "Azərbaycanda Demokratiya Aktı" adlı qanun layihəsi ABŞ Konqresinin gündəliyindən çıxmış sayıla bilərmi?

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"a bildirdi ki, sözügedən layihənin gündəlikdən çıxıb-çıxmadığı barədə dəqiq informasiyanı yalnız ABŞ Konqresinə sual ünvanlamaqla əldə etmək olar:** "Bu məsələni mən şərh edə bilmərəm. Bu sual ABŞ Konqresinə ünvanlansa daha yaxşı olardı".

**Nazirlik rəsmisi onu da məlumat verdi ki, ABŞ-da bu qanun layihəsinin qəbul edilməməsi üçün lazımi istiqamətlərdə məlumatlandırma işi aparılır:** "Bu layihənin tamamilə ədalətsiz və qərəzli qanun layihəsi olmasının sübuta yetirilməsi istiqamətində iş aparılır. ABŞ Konqresində də Azərbaycanın kifayət qədər dostları var. Həm onların vasitəsilə, həm də Azərbaycanın diplomatik nümayəndəlikləri xətti ilə ardıcıl iş aparılır. Azərbaycanın ABŞ-dakı səfirliyi orada Azərbaycanın dostları ilə bu istiqamətdə iş aparır".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə "Yeni Müsavat"a bildirib ki, Kristofer Smitin müəllifi olduğu "Azərbaycanda Demokratiya Aktı" qanun layihəsinin tezliklə qəbul olunmayacağı barədə layihə ortaya çıxan zaman verdiyi proqnoz özünü doğruldub:** "Xatırlayırsınızsa, mən əvvəldən bir neçə dəfə bu barədə fikir bildirmişdim. Fikirlərim dəyişməyib. Azərbaycan ABŞ üçün vacib və strateji ölkədir. Düzdür, İranla münasibətlərin normallaşması Azərbaycanın önəmini azaldıb, lakin DAİŞ ilə mübarizədə Azərbaycanın müsəlman ölkəsi kimi mövqeyi mühümdür. Əlavə olaraq, Azərbaycanı dışlayıb Rusiyanın yanında yer almasında da ABŞ maraqlı deyil. Amerikanın Azərbaycanda enerji maraqları da var, eyni zamanda regionda Azərbaycan kimi ölkənin ABŞ-ın dostu rolunda olması vacibdir. Məsələnin maraqlı tərəfi həm də odur ki, yəhudi lobbisinin ABŞ siyasətində önəmli yeri var. Azərbaycan hakimiyyəti İsraillə dost ölkədir və yəhudi lobbisi bu qanun layihəsinin qarşısını almaq iqtidarına da malikdir. Belə demək olarsa, bu qanunun qəbulu üçün erməni və yəhudi lobbisi arasında bir savaş gedir. Azərbaycan üstünlüyü əldən verməyəcək və yəhudi lobbisi bu məsələdə ciddi rol oynamaqdadır. Artıq yəhudi lobbisinin addımlar atdığı barədə informasiyalar var".

Smitin layihəsinin Konqresin müzakirəsinə hələ çıxarılmamasında Azərbaycan parlamentinin üzvünün hazırladığı cavab layihəsinin hansısa rol oynadığını isə R.Nurullayev inandırıcı saymır.

Bir çox siyasətçilər isə Azərbaycanın Pentaqon üçün xüsusi önəm daşıdığına diqqəti cəlb edirlər. Qeyd edilir ki, təkcə Azərbaycanın üzərindən Pentaqonun təyyarələrinin gediş-gəlişi faktı Azərbaycanın Pentaqon üçün necə ciddi komponent olduğunu söyləmək üçün yetərlidir. Pentaqonun Ağ Evə, ABŞ Konqresinə təsir imkanları var. Bu baxımdan, Pentaqon Azərbaycan kimi mühüm komponentdən məhrum olmamaq üçün Konqresin Azərbaycana qarşı sanksiyalar qanununu qəbul etməsinin qarşısını almağa çalışa bilər.

Xatırladaq ki, sözügedən qanun layihəsi Azərbaycan hökumətinin yüksək vəzifəli üzvlərinə ABŞ vizası almaq qadağasının qoyulmasını, onların biznes əlaqələrindən əhəmiyyətli dərəcədə gəlir əldə edən şəxslərə, hökumətin təhlükəsizlik və ədliyyə orqanlarının nümayəndələrinə viza qadağalarının qoyulmasını nəzərdə tutmaqla yanaşı, maliyyə sanksiyalarının, Azərbaycanla iqtisadi əlaqələrin kəsilməsini nəzərdə tutur. Bəzi siyasətçilərin fikrincə, 14 maddədən ibarət bu qanun layihəsinin 80 faizi Azərbaycan xalqına, 20 faizi birbaşa hakimiyyətə qarşıdır.

❑ **Etibar SEYİDAĞA**



# Pol Qobl ABŞ-Azərbaycan münasibətlərini şərh etdi

**Məşhur amerikalı politoloq Pol Qobl hesab edir ki, ABŞ-ın Azərbaycanla münasibətləri ilə Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi qarşılıqlı asılıdır. Virtualaz.org xəbər verib ki, Pol Qobl Ermənistanın müxalifyönümlü 1in.am portalına müsahibəsində bu haqda danışıb. O, jurnalistin ABŞ-la Azərbaycan arasında münasibətlərin o qədər də yaxşı olmadığı indiki vaxtda Vaşinqtonun Ermənistana daha çox maraq göstərdiyi barədə qənaətini bölüşmədiyini deyib.**

Politoloqun fikrincə, bu iki məsələ arasında əlaqə yoxdur. Çünki ABŞ Azərbaycan və Ermənistanla ikitərəfli münasibətlərinə həmişə ayrı-ayrılıqda baxır. "Yəni bir ölkə ilə münasibətlərdə mənfi nəsə baş verirsə, o demək deyil ki, ABŞ-ın o biri ölkə ilə münasibətlərində hökmən müsbət nəsə baş verməlidir. Lakin o ayrı məsələdir ki, Vaşinqtonun bu ölkələrdən biri ilə münasibətlərinin korlanmasından istifadə edən digər ölkə öz təsirini genişləndirmək imkanı əldə edir"- Pol Qobl deyib.

"Mən hesab edirəm ki, Qarabağ problemi ilə ABŞ-Azərbaycan münasibətlərini yenidən qiymətləndirmək lazım deyil. Aydındır ki, Vaşinqton Qarabağ probleminin həllini istəyir. Bu belədir və son 25 il ərzində də belə olub. Mən ümid edirəm ki, bu problemi həll etmək olar, hərçənd bu gün mən problemin həllinin yaxın olduğuna şübhə edirəm"-amerikalı politoloq əlavə edib.

Pol Qobl hesab edir ki, beynəlxalq təcrid vəziyyətindən çıxan İran bölgədə fəallaşacaq. Ancaq İranın Minsk Qrupunun üzvü olması mümkün deyil. "Bununla belə, hesab edirəm ki, İran nizamlama prosesində yerini tutmaq üçün təzyiqlər edəcək, bu da sonra ATƏT-in bu orqanının başqası ilə əvəzlənməsinə gətirib çıxaracaq"- Pol Qobl deyib.

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016

# Deputatdan həbsdəki partiyadaşı ilə bağlı məmurlara şok ittiham

## Fazil Mustafa: "Atasını nahaqdan şərləyib tutdurduğunuz uşaqdan necə halallıq istəyəcəksiniz?.."

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa həbs olunan dostu, partiyanın Tərtər rayon təşkilatının sədrinin ailəsində baş verən faciə ilə bağlı məlumat yayıb.**



Musavat.com xəbər verir ki, deputat hazırda həbsdə olan Zülfüqar İbrahimovun Tərtər Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən şərlənərək həbs olunduğunu, şikəst qızının isə aylarla ata həsrəti çəkdikdən sonra dünyasını dəyişdiyini deyib.

**Öz facebook hesabında bu barədə məlumat yayan deputat qeyd edib ki, Z.İbrahimov inanclı şəxs kimi ibadətlə məşğul olub, lakin o, şərlənərək radikal dindar kimi həbs edilib:** "Azərbaycan xalq hərəkatının çox dəyərli və fədakar insanlarından biri olub Zülfüqar İbrahimov. Tərtərin müdafiəsi üçün Xalq Cəbhəsi batalyonunun yaradıcısı və ermənilərə qarşı döyüşün fəal iştirakçısı olub. Böyük Quruluş Partiyasının Tərtər rayon təşkilatının sədridir. İnanclı bir iş adamıdır. Rayon üçün də əlindən gələni etmiş, Şəhidlər Xiyabanının təmirini öz vəsaiti hesabına gerçəkləşdirmiş dürüst bir insandır. Tərtər Rayon İcra Hakimiyyəti başçısının verdiyi qərəzli informasiyalar nəticəsində qondarma radikal dindar yarlığı ilə ötən ilin mart ayından həbs olunub və evində ənənəvi patron tapılması səbəbi ilə iki il azadlıqdan məhrum olunub".

**F.Mustafa Z.İbrahimovun gördüyü işlər haqda bunları yazıb:** "Onlarla ləyaqətli vətənpərvər insanlardan biri kimi tək günahı sakitcə öz günlük ibadəti ilə məşğul olmasıdır və qətiyyətlə söyləyə bilərəm ki, ümumiyyətlə, radikal baxışlı insanlara qarşı ən sərt mövqeyi olan sağlam inanc sahibidir. Zülfüqar həm də gözəl ailə başçısıdır və iki sağlam övladı ilə birlikdə 23 yaşına qədər gəlib çatmış yataq xəstəsi olan bir şikəst qız övladını da hər cür çilələrə rəğmən, fədakar xanımı ilə birlikdə müalicə etdirməyə və yaşatmağa çalışıb. Uşağın ona necə bağlı olduğunu bildiyim üçün onun atasının həbsinə dözməyəcəyini təsəvvür edirdim. İndicə xəbər aldım ki, o şikəst uşaq atasının ayrılığına aylar boyu o qədər ağlayıb ki, ürəyi tab gətirməyib, dünyasını dəyişib. Allah yerini behiştlik etsin və bizlərin bu məsum uşaqların qarşısında günahlarımızı bağışlasın!".

**Deputat uşağın ölümündə günahı olan məmurlara də səslənib:** "İndi buyurun, cənab məmurlar, atasını nahaqdan şərləyib tutdurduğunuz uşaqdan necə halallıq istəyəcəksiniz? Bu əmələ görə hansınızı Allah bağışlayacaq? Həbsxanada olan Zülfüqar qardaşıma dərin hüznlə başsağlığı verirəm və Allahdan səbir diləyirəm. Bir Allah bilir ki, onun bir icra başçısının hikkəsi ilə haqsız tutulduğunu sübut etmək üçün əlimdən gələni etməyə çalışdım, ancaq nə edim ki, qanunsuzluqların qarşısında bir çox hallarda bizim də sözümüz keçərli olmur".

Xatırladaq ki, ötən ilin martında həbs olunan Z.İbrahimov və bir neçə şəxs DİN və Baş Prokurorluğun yaydığı rəsmi məlumata görə, Tərtər ərazisində ayrı-ayrı vətəndaşların ölkə hüdudlarından kənarda qeyri-qanuni fəaliyyət göstərən silahlı birləşmələrin sıralarına qoşulmasını təşkil edən, dini dözümsüzlük və bölücülük təbliğatını aparan ekstremist yönümlü şəxslərdən ibarət mütəşəkkil cinayətkar dəstə yaratmaqda ittiham olunurlar.

❑ İLKİN

# İnsanov amili



Xalid KAZIMLI

**Bu çoxdan sübut olunub ki, toplananların yerini dəyişəndə cəm dəyişmir. Amma bu fikri siyasi arenaya nəzərən, narazı elektorata şamilən səsləndirdikdə demək lazımdır ki, o, ənənəvi müxalifətə aiddir.**

Əli İnsanov həbsdən çıxdıqdan sonra gerçəkdən də müxalifətə qoşularsa, bu, artıq toplananların sayının artması demək olacaq. Toplananlar artacaqsa, cəm də dəyişəcək. Cəm dəyişəcəksə, hərəkat və hərəkət də dəyişəcək.

Əli İnsanov elə bir simadır ki, onun müxalifətə qoşulması adi bir qoşulma olmayacaq. Elə bir iş baş versə, o, mütləq müxalifətin üç liderindən biri olacaq.

Zamanında, mərhum eks-prezident Heydər Əliyevin hakimiyyəti dövründə iqtidar komandası onun potensialından sona qədər istifadə etmədi, onu nazir postunda saxlamaqla kifayətləndi.

Əgər Əli İnsanov iddiasında olduğu postları əldə etsəydi, məsələn, əvvəlcə parlament sədri ola bilsəydi, ölkənin bugünkü siyasi arenası, durumu çox fərqli olardı.

"Fərqli" deyəndə elə çıxmasın ki, müəllif ölkənin bir ildəcə demokratikləşəcəyini, iqtidar-müxalifət münasibətlərinin normallaşacağını, azad, qanuni, şəffaf seçkilər keçiriləcəyini nəzərdə tutur.

Əsla belə şey olmayacaqdı. Əli İnsanov hərəkatçı müxaliflərə qarşı barışmaz mövqedə olan, onlara səmimi-qəlbdən nifrət edən, parlamentdəki çıxışlarında onların məhv edilməsinin vacibliyini vurğulayan, liderləri "faşist" adlandıran bir adam idi.

O, böyük vəzifə əldə edəcəyi, yəni parlament sədri olacağı halda öz güvəndiyi, sözçüsü olduğu siyasi dairələrlə birlikdə bu məqsədini gerçəkləşdirmək yolunda addımlar atacaqdı və yəqin ki, müxalifəti indikindən də pis hala salacaqdı.

Orası da dəqiqdir ki, Əli İnsanov ölkənin ikinci böyük vəzifəsini tutardısa, bir müddətdən sonra birincini də əldə edəcəkdi. Bundan ötrü onun bütün potensialı (maddi, siyasi, elektoral bazası, kadrlar korpusu) vardı.

Görünür, Heydər Əliyev də onun bu niyyət və planlarından xəbərdar idi, ona görə də İnsanovu digər bir iddialı nazirlə - YAP-ın qurucusu Əli Nağıyevlə toqquşdurdu, ikisini də məsafədə saxladı, heç birini olduqları yerdən qabağa çəkmədi, öz varis planını təkbaşına müəyyənləşdirdi.

Sonradan, 2005-ci ildə İnsanovun tamamilə zərərsizləşdirilib sıradan çıxarılmasında bu amilin - onun ambisiyasının, eləcə də arxasındakı qüvvənin planlarının faş olmasının böyük rolu oldu. Korrupsiya ittihamları boş şeydir, sabiq nazir ambisiyasının güdazına getdi.

Bununla belə, ola bilərdi ki, İnsanovun hakimiyyəti götürəcəyi halda ölkədə korrupsiya, əlləri milyardlarla oynayan oliqarxlar hakimiyyəti bu qədər güclü olmazdı. O, təcrübəli, qətiyyətli, xeyli dərəcədə də ötkəm adam olduğu üçün nə başlanğıcda, nə də sonralar ayrı-ayrı nazirlərin onun üzərində hər hansı bir hakimiyyət qurmasına imkan verməzdi.

Ancaq onun da öz dairəsi olduğundan, güman ki, ətrafındakı kadrları irəli çıxaracaq, başqalarının varlanmasına şərait yaradacaqdı. Bu halda ölkəni başqa milyarder-oliqarxlar idarə edəcəkdi və onlar ad-soyad etibarilə indikilərdən bir az fərqli olacaqdılar. Yəni bu halda da saraya toplananların yeri dəyişəcək, dövlət büdcəsindən və xalqdan oğurlanan sərvətin cəmi dəyişməyəcəkdi.

Bütün bunları yaxşı bildiyi halda müxalif qüvvələr bir vaxtların barışmaz anti-müxalifətçisinə qarşı niyə yumşalıb?

Çünki başqa variant yoxdur. Son on ildə müxalifət qüvvələri xeyli zəifləyib, parçalanmalara məruz qalıb, geniş tərəfdarlar kontingentinin, funksionerlər korpusunun bir hissəsini itirib. Yenidən toparlanmaq üçün geniş sosial bazası, maliyyə resursu, dövlətdə iş təcrübəsi olan siyasi xadimə ehtiyac var.

İnsanova loyal yanaşma və bəslənilən ümid bu üzdəndir. Elə bir dövr gəlib ki, parlaq siyasi keçmişi, təmiz avtobiorafiyası olan kasıb demokratdansa, dövlət postundan barınaraq sərvət toplamış, demokratiya və insan haqlarına daima xor baxmış siyasi xadimə üstünlük verir, güman edirlər ki, onun vasitəsilə hakimiyyət dəyişikliyinə nail olmaq daha realdır.

Azərbaycanın günündə olan başqa ölkələrdə də belə situasiyalar yaranıb və təmiz, imkansız demokratlar bir odioz oliqarxın hakimiyyətə gəlməsinə kömək ediblər və... az sonra kənarda qalıblar.

# Müxalifətin antiböhran təklifləri birmənalı qarşılanmır

## Neft hasilatının dayandırılması və parlamentin buraxılması mümkündürmü? Qabil Hüseynli: "Riskli məsələdir..."

**Ötən ilin dekabrından ölkəmizdə cərəyan edən iqtisadi böhranla bağlı əksər müxalif qurumlar antiböhran proqramlarını artıq cəmiyyətə təqdim edib. Hazırda bu proses davam edir. Böhran davam etdikcə, digər siyasi qurumların da hökumətə təkliflər paketi təqdim edəcəkləri gözlənilir.**

İndiyədək olan antiböhran proqramlarına nəzər saldıqda bir nüans diqqət çəkir. Siyasi qurumlar böhrandan çıxış yolunu neft hasilatının dayandırılmasında və parlamentin buraxılmasında görürlər. Bu təkliflərin həyata keçirilməsinin ölkəmizin hazırkı durumunda nə qədər çətin olduğu sirr deyil. Əksər ekspertlər də bu təkliflərin həllinin Azərbaycanın indiki vəziyyətində mümkünsüz olduğunu söyləyirlər. Onlar hesab edirlər ki, bunun sonu iqtisadi böhranla yanaşı, siyasi böhranın başlaması ilə nəticələnər. Bu isə xaosun yaranmasına səbəb olar.

**Politoloq Ərəstun Oruclu** ötən saylarımızdan birinə verdiyi geniş müsahibədə bu məsələyə toxunaraq, neft hasilatının dayandırılmasının qeyri-mümkün olduğunu bildirib. "Azərbaycanda neft hasilatının dayandırılması qeyri-mümkün bir şeydir. Ən azı, neft nə qədər ucuzlaşsa da, istənilən halda bazarı qoruyub saxlamaq lazımdır. Neft, qaz ölkə üçün çox vacibdir. Bu, elə şeylərdir ki, həmin sərvətlərə malik olmayan ölkələr onu qızıla satın alır. Neft yataqlarının istismarının dayandırılması bundan sonra onun



bərpasına uzun illər və on milyardlarla dollar investisiya tələb edir. Ona görə də istehsal dayana bilməz", - deyə, politoloq qeyd edib.

**Politoloq Qabil Hüseynli də neft hasilatının dayandırılmasını mümkünsüz sayır:** "Bu hasilat üzərində pay bölgüsü var. Təkcə Azərbaycanın iradəsindən asılı məsələ deyil. Bu, bölgüdə iştirak edən 10-a yaxın şirkətin iradəsindən asılıdır. Azərbaycanın dünya neft hasilatındakı payı 1%-dən bir qədər yüksəkdir. Bəlkə də 1%-dir. Onun dayandırılması dünya neft bazarında neftin çatışmazlığına təsir edə bilməz. Amma hər halda, bizim neft Avropanın bir neçə ölkəsini yanacaqla təmin edir. Çünki yüksək keyfiyyətlidir. Neft hasilatının azaldılması böyük siyasi risk tələb edir. Bununla Azərbaycan dünyanın bu sahə üzrə böyük rol oynayan neft şirkətlərini özünə qarşı qoymuş olardı. Amma neftin hasilatını tam yox, müəyyən qədər azaltmaq mümkündür. Həm ehtiyatlılıq, həm də dünya neft bazarına cüzi də olsa, təsir etmək baxımından. Digər neft ölkələri də belə qərarlar verə bilər. OPEC dəfələrlə belə təkliflə çıxış edib. Bu məsələdə ipə-sapa yatmayan Səudiyyə Ərəbistanının özü də neft hasilatının azaldılması ilə bağlı son dövrlərdə çıxış etməyə başlayıb. Bu amillər neftin yüksəlişinə təkan verə bilərdi. Hasilatın tamam dayandırılması heç zaman mümkün deyil".

**Politoloq indiki şəraitdə parlamentin buraxılması təklifinin də mümkünsüzlüyünü vurğuladı:** "Bu, çox riskli məsələdir. Parlamentin yüksək iş qabiliyyəti və ölkəni böhrandan çıxaracaq qanunverici orqan şəklində formalaşdırıldığını deyə bilmərəm. İndiki halda hakimiyyətin çox ciddi qoludur. Parlamentin buraxılması doğrudan da ölkədə siyasi vakuum yaradar. İqtisadi çətinliklərin yaratdığı gərginliyi də üstələyə bilər. Bu, yalnız müəyyən mərhələdən sonra mümkün ola bilər. Hakimiyyətin islahatlara başladığı bir vaxtda parlamentin buraxılması ideyası ağlabatan məsələ deyil. Bu, işə ciddi zərər vura bilər".

**Q.Hüseynli ölkə müxalifətinin parlament seçkilərinə görə belə təkliflərlə çıxış etdiyini iddia edir:** "Parlament seçkilərindən sonra onlarda müəyyən narazılıqlar qalıb. Bu narazılıq hissi düzgün düşünməyə, qərar verməyə maneçilik yaradır. Onların bütün səylərini hakimiyyəti islahatlar keçirməyə vadar etməyə, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparmasına yönəltməlidirlər. Həssas bir şəraitdə hakimiyyət qollarının belə islahatlara getmələrinə də ehtiyatlı yanaşılmalıdır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016

# İqbal Ağazadə müxalifətin birliyini istəmir

**Ümid sədri:** “Vəzifəsi olmayanlar belə münasibətdədirsə, görün hakimiyyətə gəlsələr, nə vəziyyət yaranar”



**Ümid Partiyasının sədri İqbal Ağazadə Tamilla Qulamini, Xanlar Abbası, Qədir Aslanovu və İsmayıl Mirzəcanovu özünə müavin təyin edib. Ümid sədrinin qarşıdakı günlərdə də bir neçə gənci özünə müavin təyin edəcəyi deyilir. İ.Ağazadənin son təyinatları belə bir rəy yaradıb ki, partiya sədri ölkə gəncliyini öz ətrafına toplamaq niyyətindədir.**

***

*Axşam saatları olmasına baxmayaraq, Ümid sədri qərargahda iş başında idi. Onunla ölkəmizdə və dünyada baş verən, hazırda gündəmdə olan əsas məsələlərlə bağlı geniş söhbət etdik. O, öncə son qərarları barədə danışdı:*

“Gənclərə daim diqqət ayırmışam. Amma partiya quruculuğu kifayət qədər təcrübə tələb edir. Yeni gənc müavinlərimin də təcrübələri yüksəkdir. Ona görə də onlara etimad göstərildi. Yaxın günlərdə gənclərlə bağlı yeni təyinatlar olacaq. Gənclərin siyasətə gəlişi siyasətin rəngini dəyişəcək. Gənclik daha enerjilidir və zamanın tələblərinə uyğun addım atmaqda maraqlı olur.

Bu gün Azərbaycan gəncliyinin böyük kəsimi bizimlədir. Heç bir siyasi qurumda Ümiddə olan qədər gənc yoxdur. Amma təkcə gəncliyin səsinə ümid etmirik. Siyasət hakimiyyətə gəlmək üçün bir körpüdür. Heç kəs siyasi partiya ilə hakimiyyətə gəlmir. Partiya üzvləri dəstəklədikləri namizədlərin təbliğatını aparmaq, fikirlərini cəmiyyətə çatdırmaq üçün bir vasitədir. Əgər hakimiyyətə üzvlərimizlə gəlməyi düşünsək, gərək 2-3 milyon üzvümüz olsun. Amma min nəfərlik gerçək komandımız 2-3 milyon seçicinin səsini almağa kömək edər. Təbii ki, o komandanı qura bilsək... Ana xəttimiz budur ki, yeni nəsillə işləyəcəyik. Gərəkirsə, mən də postumdan gedəcəm və gənclərin yanında məsləhətçi olacam.

***- 3 ay yarım bundan öncəki deputat İqbal Ağazadə ilə indiki İqbal Ağazadə arasındakı fərqli və oxşar cəhətlər nədən ibarətdir?***

- Fərqlilik odur ki, bu gün başqa bir istiqamətdə təşkilatlanma forması ortaya qoymağa məcburuq. Bundan əvvəl komissiyalarda təmsil olunurduq, dövlətin komissiyalara ayırdığı vəsaitlər var idi. Gəlir mənbələrimiz tənzimlənirdi. 40-dan yuxarı dairədə 1500 nəfər komissiya üzvümüz var idi. Bir nəfər də MSK-da çalışırdı. Bunlar formalaşmış strukturlar

## “Novruz bayramı ərəfəsində üçüncü devalvasiya olacaq”

idi. İndi tamam fərqli vəziyyətdir. Şəxsi düşüncəmdə, fəaliyyətimdə dünənki İqbal Ağazadə ilə indiki İqbal Ağazadə arasında heç bir fərq yoxdur. Dünən hansı mövqedə idimsə, indi də o mövqedəyəm. Siyasi fəaliyyətimi oturduğum kürsülər deyil, ağlım müəyyən edir. İstər həbsdə, istər Milli Məclisdə, istərsə də partiya sədrliyində olum, düşüncəm dəyişməyəcək. Qələbənin modelini, ölkəmizin demokratikləşməsini bunda görürük. Dünənki siyasi kursumuz bu gün də davam edir. Özümüz imtina etməyənə qədər o kurs dəyişməyəcək.

***- İndi sizin üçün partiyanı idarə etmək daha rahat deyilmi?***

- Mənim üçün vaxt və rahatlıq anlayışı yoxdur. Hazırda çətin olan bir məsələ var. Yenə də seçicilərim mənə müraciət edirlər. Problemlərini deyirlər, mən onları artıq həll edə bilmirəm. Qalan vəziyyət eynidir. Funksional əməkdaşlıq ola bilər, amma birləşməmək daha yaxşıdır.

***- Nəzərdə tutduğunuz komandanı formalaşdırmısınız?***

- Bu istiqamətdə ciddi şəkildə çalışırıq. Yəqin ki, yaradacağıq.

***- Hazırda “antiböhran koalisiyası”nda təmsil olunursunuz. Proses necə gedir?***

- Bu, funksional əməkdaşlıqdır. Burada blok, məsuliyyət və öhdəlik yoxdur. Ölkənin bugünkü vəziyyətində funksional əməkdaşlığın yollarını arayırıq. Cəmiyyətin aktiv kəsimini bir yerə toplayıb, hakimiyyətə mesajlar vermək lazım gəlir.

***- Bu qurum da qısamüddətli müxalif birliklərdən olacaq?***

- Bu əməkdaşlıq uzunömürlü də ola bilər. ADP ilə uzun müddətdir funksional əməkdaşlıq edirik. Biz bunu öyrənməliyik ki, funksional əməkdaşlıqlar, hökmən dava ilə bitməli deyil.

***- Demək istəyirsiniz ki, hazırkı deputat Araz Əlizadə seçicilərlə maraqlanmır?***

- Seçicilərim müraciət edirlər ki, filan problemlərimiz var, hara baxırsınız? Cavab verirəm ki, bağışlayın, millət vəkili deyiləm. Seçici qayıdıb deyir ki, axı biz sizə səs vermişik. Seçicilərim həm təəssüflənir, həm də təəccüblənirlər.

## “ASAN Xidmət” qanunlarımıza ziddir”

***- İqbal bəy, iqtisadi böhran fonunda müxalifət yenə də təşkilatlana bilmədi. Bəlkə də mövcud vəziyyət birlik üçün bir şans idi. Amma olmadı...***

- Müxalifətin bir araya gəlməsinin tərəfdarı deyiləm. Niyə tərəfdarı deyiləm? Bizi mübarizədən uzaqlaşdıran, təşkilatlanmağımızı bəzən əngəlləyən birləşəcəyimizə olan xülyamızdır. Ümid etmişik ki, güc olmasam, digəri ilə birləşib güc olaram. Hər kəs başını aşağı salıb partiyasını qurmalı, yaxud blokunu müəyyənləşdirməlidir. Bu xətlə də hakimiyyətə doğru getməlidir. Hazırda çox pis bir mühit yaranıb. Fərz edək ki, belə mühitlə müəyyən qüvvələr hakimiyyətə gəlir və daxildə bir-birilərini didirlər. Heç bir vəzifəsi olmayanlar belə belə pis münasibətdədirsə, görün hakimiyyətə gəlsələr nə vəziyyət yaranar. Bu baxımdan hər kəs komandasını müəyyən etməli, hakimiyyətə gəlməlidir.

***- İqtisadi böhran zamanı hakimiyyətə ilk təkliflər paketini Ümid hazırladı. Ardınca isə digər qurumlar. Amma hakimiyyət məhəl qoymadı...***

- Bu fikirlərlə razı deyiləm. Hakimiyyət bir bənddən başqa, bütün təkliflərimizi ya natamam, ya da özünə uyğun şəkildə yerinə yetirir. İctimai nəzarət dedik, buna uyğun Apelyasiya Şurası yaradıldı. Tikinti sektoru ilə bağlı təkliflərimiz oldu, hökumət bu istiqamətdə müəyyən addımlar atdı. Neft sektoru və digər sahələrlə bağlı hazırda üzərində çalışdıqları təkliflərimiz oldu. Onlar iddia edə bilərlər ki, heç kimin planından yararlanmayıblar. O zaman sadə bir sualım olacaq. Biz planlarımızı açıqlamayana qədər niyə bunları etmirdiniz? Müəlliflik iddiasında deyilik. Ölkəmizin çətin durumla üzləşməsini istəmirik. Amma hakimiyyət hələ də böhran olduğunu qəbul etmək istəmir. Qorxumuz ondadır ki, iqtisadi və siyasi böhran birləşə bilər. Bu zaman hökmən xaos yaranacaq. Ortalığa bu iki siyasi böhranın birləşməməsi modelini qoyduq. Siyasətdən başlayıb, iqtisadiyyatı idarə etmək lazımdır. Hakimiyyət əksini edir. Dünya iqtisadiyyatın siyasət üzərində hökmranlığına son qoyub. Artıq siyasəti pul müəyyən etmir. Siyasət iqtisadiyyat üzərində hökmranlıq edir. Hakimiyyət bunu etiraf etməkdən çəkinir. Siyasi məhbuslar azad olunmur, Qərblə münasibətlər qorxulu mərhələyə keçir. Sanksiyalar dönəmi başlasa, Azərbaycan üçün asan olmayacaq. İqtidar batan iqtisadiyyatı xilas etməyə çalışır. Atılan addımların həlli uzun zaman tələb edir. İş yerlərinin açılacağı deyilir. Hər kəs bilir ki, böhran zamanı bu mümkün deyil. “Üzən manat” məzənnəsinə keçildiyi deyilir, amma Mərkəzi Bank manatı nəzarətində saxlamağa çalışır. Banklar ləğv olunur, zorla birləşdirmə halları olur. Bunlar səmərəsizdir. Neftin təsirində olan manat bazarda ya möhkəmlənər, ya da dəyərdən düşər. Valyutan bazarda möhkəmlənə bilmirsə, istiqraz nə qədər kömək edə bilər? Yersiz cəhdlər edilir. Elə yoxlamalar aparılır ki, mənə şəxsən gülməli gəlir. Deyirlər ki, möhtəkirlik edən filan qədər şəxs tutulub. Ayıbdır. Qiymət qaldırmağa görə kimisə həbs etmək faciədir. Qiyməti nə qədər qoymuşam, şəxsi işimdir. Kiminsə xoşuna gəlmirsə almasın. İnsanları şərləyib, həbs etmək doğru deyil. Hökumət gedən proseslərlə bağlı ciddi düşünməlidir. Hakimiyyətdəki müəyyən qruplar, şəxslər israrla prezidenti inandırmağa çalışırlar ki, tədbirlər paketi vəziyyəti normallaşdıracaq. Özlərini yaxşı etmək üçün belə paketlər hazırlayırlar. Bunların heç biri uğur gətirməyəcək. Məhkəmələr işləmədiyinə görə Apelyasiya Şurası yaradılıb. Hakimiyyətə sual verirəm ki, nə üçün 3-cü hakimiyyət işləmir? Paralel strukturlara heç bir ehtiyac yoxdur. Bir növ “ASAN Xidmət” modelidir. “ASAN Xidmət”də iqtidar müəyyən qədər uğur qazandı. Baxmayaraq ki, bu qurum qanunlarımıza ziddir. Çünki həmin strukturlar var. Niyə vəzifələrini yerinə yetirmirlər? O qurumlar üçün büdcədən saxlama xərcləri ayrılıb. Bu pullar hara gedir? Dövlət həm “ASAN Xidmət”ə, həm də paralel olan strukturlara vəsait xərcləyir. İndiyə qədər məhkəmələr barəsində dediklərimiz təsdiq olunub. Maliyyə naziri deyir ki, bundan sonra hər qəpiyin qiymətini biləcəyik. Sual olunur: niyə indiyə qədər hər qəpiyin qiymətini bilməmisiniz? Belə idarəçilik olmaz...

***- İqbal bəy, müxalifətin gündəm yaratmaqda şou əhlinə belə uduzduğu mətbuatdan açıq görünür. Sizcə, ictimaiyyət, yoxsa müxalifət günahkardır?***

- Müxalifət indiyə qədər olan siyasi prosesləri təhlil edərək, hakimiyyətin yanaşmasından ehtiyatlanaraq hadisələri təbii axarına buraxıb. Çalışırlar ki, kimsə nədəsə ittiham olunmasın. Müxalif qurum olaraq, gündəm yaratmaq barədə düşünmürük. Hesab edirik ki, seçici tərəfindən verdiyimiz mesajlar qəbul olunur. Siyasətimizi bunun üzərində qururuq. Siyasi sistemdə axsama var. Müxalifət bunu dəyişməlidir, amma gücü çatmır. İqtidar çalışır ki, siyasi gündəmi müxalifətin zəif tərəfləri ilə göstərə bilsin. İqtisadiyyatın siyasət üzərində hökmran olduğu vaxtlarda insanlar daha çox başqa məsələlərə meyilli olurlar. Azərbaycan tipli ölkələrdə bu daha çox işə yarayır. Amma iqtisadi-siyasi böhran olduqda, siyasətə meyllənmələr artır. Azərbaycan seçicisinin “siyasət mənlik deyil” demək dövrü arxada qalıb. Bu tək müxalifətin günahı deyil. Dünyanın ən demokratik ölkələri belə bu vəziyyəti yaşayıblar. Azərbaycanda siyasətin hakim olacağı dövr başlayır.

***- İqbal bəy, üçüncü devalvasiyanı gözləyirsizmi?***

## “Siyasi fəaliyyətimi oturduğum kürsülər deyil, ağlım müəyyən edir”

- Mütləq. Buna şübhə etmək mümkün deyil. Proqnozum budur ki, Novruz bayramı ərəfəsində üçüncü devalvasiya olacaq.

***- Hökumət bunun qarşısını almaq üçün nə etməlidir?***

- Hakimiyyət verdiyi qərarları yerinə yetirməli, “üzən manat” siyasətini davam etdirməlidir. Belə böhranlar zamanı əhali çörəkpulu qazanmağın yollarını aramalı, dövlət təşkilatçı rolunu oynamalıdır. Azərbaycan hakimiyyəti isə əksini edir. Özü nəsə etməyə çalışır.

***

**Sonra keçid alırıq Türkiyə-Rusiya münasibətlərinə. “Azərbaycan iki qonşu dövlətdə yaranmış vəziyyətdə nə etməlidir” sualını İ.Ağazadə belə cavablandırdı:** “Azərbaycanın bu məsələlərdə yanlış siyasəti oldu. Vaxtilə elə Milli Məclisdə çıxışım zamanı da bildirmişəm ki, Ermənistanla Türkiyə əlaqələrini açmaq lazımdır, Türkiyə Cənubi Qafqaza girməlidir. Türkiyənin regionun lider dövləti olmasının vacibliyini demişəm. Hakimiyyət daxilindən Türkiyə-Ermənistan sərhədlərinin açılmasına qarşı basqılar oldu. Əgər Türkiyə Ermənistana girmiş olsaydı, indi Azərbaycan nə etməklə bağlı sual axtarmazdı. Bu sualı Ermənistan axtaracaqdır. Rusiya isə Türkiyəni regiondan çıxarmaq üçün yollar arayacaqdır. Bu mərhələdə edəcəyimiz heç nə yoxdur. Bu, Türkiyə-Rusiya savaşı deyil, region uğrunda mübarizənin növbəti mərhələsidir. Burada Türkiyə tək tərəf deyil. NATO bu məsələlərdə tərəfdir. Azərbaycan indiki şəraitdə Rusiyaya tərəf ola bilməz. Çünki Rusiyanın bizdən istəyəcəyi ilk şey anti-Türkiyə siyasəti olacaq. Azərbaycanda isə buna gedəcək hakimiyyət, xalq və müxalifət yoxdur. Hər kəs Türkiyənin yanındadır.

***- Sizcə, bu gərgin münasibətlər hara qədər davam edəcək?***

- Hamı III Dünya müharibəsindən danışır. Əslində qalsa, bu müharibə davam edir və çoxdan başlayıb. Məkan Yaxın Şərqdir. I və II dünya müharibəsini görənlər, yaxud eşidənlər hesab edirlər ki, müharibə hökmən kiminsə sərhədində olmalıdır. İndiki dövrdə böyük dövlətlər müharibələri öz ərazilərində aparmırlar. Türkiyə, Rusiya, NATO və ərəb ölkələri bu müharibənin içərisindədirlər. Bütün dünyanı bu müharibənin əhatə etməsi vacib deyil. Məgər II Dünya müharibəsi bütün dünyada gedirdi? Bu müharibə bitərsə, Rusiya-Türkiyə münasibətləri normallaşa bilər. Bunun bitməsi üçün də çox şərtlər lazımdır. Böyük dövlət gerçəkliyə söykənməyən iddialarından geri durmalıdırlar. Rusiya başa düşməlidir ki, onun dünyadakı yeri bu qədərdir. Dövlətləri zorla birliklərə qoşmaq olmaz. Təhdidlər bitəndə 3-cü dünya savaşı da bitəcək. Nə zaman Türkiyə, Rusiya, NATO və ərəb ölkələri bir masa ətrafında Bəşər Əsədin getməsini müzakirə edəcəklər, yaxud sülhdən danışacaqlar, bax o zaman deyəcəyik ki, 3-cü dünya savaşı bitdi. Bu gün dünyada gerçəkdən bu savaş gedir. Bu savaşın I və ya II dünya müharibələrinə oxşaması şərt deyil. Ölənlər əvvəlkilərdən az deyil. Yad planetdən qoşulduqları zaman məgər bu müharibə başlamış sayılacaq? Kimsə gözləyir ki, müharibə Avropa sıçrayacaq, yanılır. Avropa öz içərisindən müharibələri çoxdan çıxararaq, təhlükəsizlik zolağı cızıb. Bu gün müharibəni Avropaya, Amerika ərazisinə keçirəcək güc yoxdur. Orada savaş başlayıbsa, orada da bitəcək.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016



# Ölkə tütünçülüyünün acı tüstüsü-ayda 90 milyonu kimlər qazanır?

## Ekspertlər istehsalın və monopoliyanın çətinliyindən danışırlar...

**Ölkədə ötən il baş verən hər iki devalvasiyadan sonra siqaretin qiymətində də əhəmiyyətli bahalaşma baş verib. Bu isə ölkədə siqaret istehsalının nə dərəcədə mümkün olması mövzusunu bir daha aktuallaşdırıb. Ekspertlər Azərbaycanda siqaret istehsalının detallarından danışarkən, tütünün keyfiyyətsizliyindən şikayətlənirlər. İddialara görə isə ölkədə istehsal olunan siqaretlərin tərkibinə tütün deyil, daha çox fərqli otlar, məsələn, yonca qatılır. Ekspertlər ölkədə istehsal olunan siqaretin tərkibində qatranın miqdarının təhlükəli həddə olduğunu da vurğulayırlar. Həmçinin ölkədə tütün istehsalının aşağı düşməsinin əsas səbəbi kimi yerli sortların hazırkı siqaret xammalı kimi yararsız olması da deyilir.**



Qeyd edək ki, statistikaya görə, 2015-ci ilin yanvar-dekabr ayları ərzində ölkəyə 297 608,16 min ABŞ dolları dəyərində tütün və tütün məmulatları idxal edilib. Bu, 2014-cü ilə nisbətən 101 786,03 min dollar və ya 25,49 faiz azdır. Hesabat dövründə Azərbaycandan 9 406,32 min dollar məbləğində tütün və tütünün sənaye əvəzedicilər ixrac edilib ki, bu da əvvəlki illə müqayisədə 3 3048,90 min dollar, yaxud 26,25 faiz azdır.

**Ekspert Qalib Toğrul** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ölkədə tütün istehsalının aşağı düşməsinin əsas səbəbi yerli sortların hazırkı siqaret xammalı kimi yararsız olmasıdır: "Sovet dönəmində respublikanın bir çox rayonlarında- Qaxda, Balakəndə, Zaqatalada, Şəkidə, Cəlilabadda böyük tütün plantasiyaları olub. Ən yüksək istehsal 1986-cı ildə qeydə alınıb: 65,2 min ton. Ancaq SSRİ dağıldığı üçün əkin, emal və istehsal müəssisələri arasında əlaqələr qırıldı, tütün istehsalı sürətlə aşağı düşməyə başladı. 2014-cü ildə ölkəmizdə 2,9 min ton tütün istehsal olunub. Tütün istehsalının aşağı düşməsinin əsas səbəbi Azərbaycandakı yerli sortların hazırkı siqaret xammalı kimi yararsız olmasıdır. Son illər Azərbaycanın müxtəlif bölgələrində xaricdən gətirilən yüksək keyfiyyətli toxumlar əsasında tütün şitili istehsalı üçün istixanalar qurulsa da, fermerlər, qurutma və emal müəssisələri arasında əlaqə yaradılsa da, bunlar tütünçülüyün inkişafı üçün yetərli deyil. Azərbaycanın bütün kənd təsərrüfatı üçün xarakterik olan pərakəndəlik, plansızlıq, toxumçuluğun zəif inkişafı, müasir becərmə və emal texnologiyalarından geniş istifadə edilməməsi və maliyyə əlçatanlığının olmaması tütünçülük üçün də xarakterikdir. Hazırda biz tütün və siqareti həm istehsal, həm idxal, həm də ixrac edirik. 2015-ci ilin 9 ayının göstəricilərinə görə, tütün və tütünün sənaye əvəzedicilərinin idxalı 231 milyon dollar, ixracı isə 6 milyon 356 min dollar olub. Əvvəla, göründüyü kimi, idxal ixracdan dəyər ifadəsində təxminən 38 dəfə çoxdur. İkincisi, biz daha çox tütün xammalı ixrac edirik, əvəzində hazır məhsul-siqaretlər, siqarlar idxal edirik. Hazır məhsul ixracı isə təxminən milyon yarımdır ki, bu da "European Tobacco Baku"nun payına düşür. Əslində bu, Azərbaycan iqtisadiyyatının problemidir ki, ixracda xammalın payı hazır məhsulla müqayisə olunmayacaq dərəcədə yüksəkdir. Hazırda Azərbaycanda siqaret bazarının 30 faizə yaxını bu şirkətin istehsalı hesabına ödənilir. Ancaq təəssüf ki, "European Tobacco Baku" tütün xammalının demək olar ki, hamısını xaricdən alır, çox cüzi hissəsini yerli xammal hesabına ödəyir. Mən ümumiyyətlə, Azərbaycanda tütün əkilməsinin əleyhinəyəm. Bu bitki insan sağlamlığı üçün ziyanlı olduğundan, artıq heç bir Avropa ölkəsində əkilmir. Dünyanın tütünə olan tələbatı Cənubi Amerika və Afrikada becərilən tütün hesabına ödənilir. İnsana dəyər verən ölkələrdə daha tütün əkilmir".

Ölkədə siqaret istifadəçilərinin sayının 3 milyon nəfər olduğu bildirilir. 2015-ci ildən bu yana siqaretlərin qiyməti 100 faiz artıb. Orta hesabla 3 milyon siqaret istifadəçisinin gün ərzində bir qutu siqaret çəkdiyini nəzərə alsaq, bu o deməkdir ki, gün ərzində siqaret mafiyası qiymət artımından sonra 3 milyon əlavə vəsait əldə edib. Bu, aya 90 milyon manat deməkdir. Əksər ekspertlər bildirirlər ki, siqaretin bahalaşmasının iqtisadi əsasları yoxdur. Yeni ölkədə satılan siqaretlərin qiymətini bahalaşdırmamaq da olardı. Daxildə tütün isteshsalı 2,8 min tondur. Bu miqdarda tütün ölkənin ay yarım tələbatını görür. Yerdə qalan hissə isə idxal hesabına ödənir. Bura həm tütünün xammal kimi, həm də hazır məhsul kimi idxalı daxildir. Azərbaycana əsasən Rusiyadan, Ukraynadan, Almaniyadan, Hollandiyadan, Birləşmiş Ərəb Əmirliklərindən siqaret gətirilir.

Ekspertlərin sözlərinə görə, bir hektar tütün sahəsindən orta hesabla 25,5 və ya 27,7 sentner məhsul götürmək mümkündür. Bir ton yaşıl tütündən isə 180-200 kiloqram quru tütün çıxır. Qeyd edək ki, sovetlər dönəmində əlverişli iqlimə malik olan şimal rayonlarından Şəkidə, Bərdədə, Qaxda, həmçinin Zaqatalada, cənub rayonlarından isə Lerik və Yardımlıda tütün istehsal edilib.

**Ekspert Rəşad Həsənov isə musavat.com-a açıqlamasında qeyd edib ki, müstəqil Azərbaycanda tütün istehsalı ilə bağlı ciddi geriləmə baş verib:** "Əvvəlki dövrlərdə tütünçülük ölkədə inkişaf edirdi. Hazırda Azərbaycanda istehsal olunan tütünün məhsuldarlığı və yararlılığı məsələsi var. Yəni məhsul yararlıdırmı, sahibkarlar bu sahəyə maraq göstərərmi? Bizdə tütün alıcısı bu sahədə inhisarçıdır. Tobako fabrikimiz inhisarçı olduğuna görə də alış qiymətləri o sahənin inkişafı üçün daha mühüm məqamlardan biridir. Əgər aşağı qiymətlərlə alış həyata keçirmək istəyirsə, yaxud Azərbaycanda istehsal olunan məhsulun maya dəyəri idxaldan daha baha başa gəlirsə, o məhsulun istehsal edilməsinə ciddi ehtiyac olmaz. Hazırda Ümumdünya Ticarət Təşkilatının əsas məğzi ondan ibarətdir ki, hansı ölkədə daha az resursun sərfi ilə başa gəlirsə, məhsul o ölkədə istehsal edilsin. O demək deyil ki, Azərbaycanda tütün alınırsa, o, mütləq istehsal edilməlidir. Burada aqrar sektorun mütəxəssislərinin, Kənd Təsərrüfatı Nazirliyinin araşdırmasına ehtiyac var. Görək həqiqətən də Azərbaycanda bu istiqamətdə məhsuldarlıq kifayət qədər ola biləcəksə, rəqabətə tab gətirmək mümkün olacaqsa, buna çalışmaq olar. Bu istiqamətdə istehsal formalaşdırıla bilər, mümkün qədər dövlət dəstəyi ilə təmin oluna bilər. Ölkədə idxaldan asılılığı azaltmaq mümkündür. Amma maya dəyərini araşdırmaq çox vacibdir. Bu istiqamətdə ciddi araşdırma yoxdur. Hazırda bildiyim qədər ölkədə çox az şəkildə fərdi sahibkarlar bu istiqamətdə müəyyən işlər görürlər. Əgər bu gün Azərbaycanda tütünçülük sahəsində əkin həyata keçirilərsə, daha çox mütəsəssislər onun üzərində işləməlidir ki, bu keyfiyyətə cavab verirmi, vermirmi? Sabah gömrükdə liberallaşma olacaqsa, ölkədə istehsal olunan məhsul rəqabətə davam gətirə biləcəkmi? Əsas sual budur. Əgər rəqabətə davam gətirəcək yerli məhsul istehsal olunması mümkün deyilsə, bu sahəyə yatırım etməyə dəyməz".

❑ Röya RƏFİYEVA



# Milyarder ölkənin milyonçu nazirinin qəpik davası

## Ekspertdən sərt ittiham: "Samir Şərifov vətəndaşlara qənaət öyrətmək yerinə, istefa ərizəsini yazmalı idi"

**Maliyyə naziri Samir Şərifovun "hər qəpiyimizə diqqətlə yanaşmalıyıq" açıqlaması cəmiyyətdə birmənalı qarşılanmayıb. Nazir bildirib ki, biz israfçılığa və izafi xərclərə, o cümlədən lüzumsuz xərclərə imkan verməməliyik. Nazirin sözlərinə tənqidi yanaşanların əsas arqumenti budur ki, milyardlarla manat vəsaitin mənimsənilməsinə göz yuman dövlət məmurlarının indi xalqın qəpiklərinə nəzarət etməsi, onlara qənaətlə bağlı tövsiyələr verməsi absurddur.**

**İqtisadçı ekspert Rəşad Həsənov** da "Yeni Müsavat"a açıqlamasında maliyyə nazirinin əhaliyə qənaətlə bağlı verdiyi tövsiyələri lüzumsuz adlandırıb: "Bu, məntiqsiz bir tövsiyədir. Böhran dövrlərində hər bir ölkədə "kəmərsıxma" siyasəti həyata keçirilir, büdcədə bir çox xərclər azaldılır. Ancaq məsələ ondandır ki, Azərbaycanda bir müddət öncəyə qədər milyardlarla dollar səmərəsiz şəkildə xərclənirdi və hökumət qənaət haqqında düşünmürdü. Büdcə vəsaitlərinin korrupsiyanın yeminə çevrilməsi və bütün bunların "qəpik məsləhəti"ni verən maliyyə naziri Samir Şərifovun dövründə baş verməsi həqiqətən də maraqlıdır. Burada sual ortaya çıxır ki, milyardlar sovrulanda siz haraya baxırdınız? Maliyyə naziri bu məsələlərə birbaşa cavabdehdir".

**İqtisadçı qeyd edib ki, bu günə qədər doğru olmayan maliyyə siyasətinin həyata keçirilməsi nəticəsində yaranmış böhranın məsuliyyəti maliyyə nazirinin üzərinə düşür:** "Hansısa bir ölkədə bu kimi proseslər baş versəydi, ilk olaraq istefa ərizəsini yazan məmurlardan biri maliyyə naziri olmalı idi. Ancaq təəssüf ki, biz bunun əksini müşahidə edirik. Cəmiyyətə, vətəndaşlara qənaətlə bağlı mesajlar verilir. Xüsusilə də kreditlərlə bağlı məsələdə bu artıq son damla hesab edilə bilər. Çünki biz Samir Şərifovun açıqlamasında "Biz hansısa qrupa niyə güzəşt etməliyik? Güzəşt etsək başqa bir qrup da peyda olacaq" kimi ifadələrin səslənməsi onu göstərir ki, bu məmurlar yerində deyillər. Eyni zamanda vətəndaşların rəyini heç bir halda nəzərə almırlar, cəmiyyətin mövqeyi onlar üçün önəmli deyil".

**Rəşad Həsənovun sözlərinə görə, gəlirlərin azalması elə insanları qənaət etməyə vadar edən başlıca səbəbdir:** "Vətəndaşın xərclərini tənzimləmək, qənaət rejiminə keçmək üçün heç bir formada Samir Şərifovun tövsiyəsinə ehtiyacı yoxdur. Vətəndaşın gəliri azalıbsa, avtomatik olaraq xərcləri də azalıb. Təbii ki, hər bir ailə öz xərcləri ilə bağlı öncəliklər müəyyənləşdirir. İlk növbədə ərzaq, kirayə, kommunal xərclər durur. Məsələyə Azərbaycan mentalitetindən yanaşsaq, vətəndaşların ilk təxirə salacağı xərclər səhiyyə xərcləridir. Təhsil xərcləri də bir çox hallarda təxirə salınır. Vətəndaşlar öz övladlarının gələcəyi ilə bağlı məsələlərə həssas yanaşsalar da, böhran məqamında ilk təxirə salınacaq xərclər sırasında təhsil xərcləri də öncə gələ bilər. Orta azərbaycanlının yüksək keyfiyyətli məhsulları istehlak etmək imkanı heç zaman olmayıb. Buna baxmayaraq, müəyyən Çin məhsulları deyil, Türkiyədən idxal olunan məhsullara üstünlük verilirdi. Ancaq bundan sonra daha ucuz və keyfiyyətsiz məhsullara üstünlük verəcək. Bu da həm sağlamlıq, həm də rifah baxımından həyat tərzini geriyə aparan nüanslardır".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016

# Putin devrilərsə, Azərbaycanı nə gözləyir?

## Qərb Rusiya prezidentini postundan uzaqlaşdırmaq üçün hərəkətə keçib; şimal qonşumuzda gedən proseslər ölkəmizdə narahatlıqla izlənilir

**Hazırda dünya liderləri arasında bəlkə də ən çox gündəmdə olan şəxs Rusiya prezidenti Vladimir Putindir. Zaman-zaman Rusiya prezidentinin Qərb tərəfindən postundan uzaqlaşdırılacağı barədə dünya mətbuatında xəbərlər dolaşıb. Son günlərdə belə iddiaların sayı çoxalıb. Xüsusilə Türkiyə ilə münasibətlərin gərginləşməsi, Qərbin qardaş ölkəyə verdiyi açıq dəstək Putin hakimiyyətinin yaxın zamanlarda bitəcəyi barədə iddiaların çoxalmasına səbəb olub.**

Ölkəmizdə də gedən proseslər narahatlıqla izlənilir. Rusiya kimi ölkəmizə təsir imkanları yüksək olan ikinci bir dövlətin olmadığı məlumdur. Orada gedən proseslərin Azərbaycana birbaşa təsiri qaçılmazdır.

**Politoloq Şahin Cəfərli** Qərbin Rusiyada qarşıdan gələn 2018-ci il prezident seçkilərinə ciddi hazırlaşdığını bildirdi: "Putinin xalq inqilabı və ya saraydaxili çevriliş yolu ilə hakimiyyətdən uzaqlaşdırılması ehtimalı çox azdır. Lakin onun dinc və qanuni yolla iqtidardan uzaqlaşdırılması mümkün ola bilər. Bunun yolu seçkilərdən keçir. 2018-ci ilin martında Rusiyada növbəti prezident seçkiləri keçiriləcək. Putin hələ də bu seçkidə iştirak edib-etməyəcəyini açıqlamayıb. Vaxt yaxınlaşır və biz artıq Rusiyanın özündən əvvəl Qərb dünyasının bu seçkilərə hazırlıq istiqamətində ilk addımlarını izləyirik. Putinin Britaniya məhkəməsi tərəfindən Litvinenkonun zəhərlənilməsində, ABŞ hökuməti tərəfindən isə korrupsiyada ittiham olunması, bu hazırlığın tərkib hissəsidir. Rusiya prezidentinin Londonun mərkəzində təhlükəli radioaktiv maddədən istifadə etməklə terror törətməkdə və ilk dəfə olaraq Vaşinqton tərəfindən rəsmən korrupsiyada suçlanması məqsədyönlü siyasətdən xəbər verir. Qərbdə ilk dəfədir səslənən bu təzyiq xarakterli ittihamlar Putini modern dünyadan təcrid edərək, onu seçkidə iştirakdan imtinaya vadar etmək məqsədi güdür. Qərb paytaxtları açıq şəkildə Putinin hakimiyyətdə qalmasını istəmədiklərini və Ukrayna, Suriya istiqamətləri istisna olmaqla, onunla hazırda məcburən dialoq qurduqlarını nümayiş etdirirlər. Putinin Qərbdən gələn bu mesaja cavabı beynəlxalq geosiyasi proseslərə, o cümlədən bölgəmizə ciddi təsir göstərəcək. Rusiya prezidentinin şəxsi xarakteri nəzərə alınarsa, onun basqılara boyun əyməmək yolunu seçəcəyini söyləmək olar. Çünki indiyədək Putin müqavimətə üstünlük verib. Ukrayna məsələsində hələ də ciddi güzəştlərə getmir. Məhz bu siyasət və neoimperial iddialar Qərblə "yeni soyuq müharibə" kimi dəyərləndirilən konfrontasiyanın yaranmasına gətirib çıxarıb".

**Ş.Cəfərli Putinin yenidən prezident seçiləcəyi təqdirdə, baş verə biləcək proseslərə də toxundu:** "Putinin yenidən prezident seçilməsi və mövcud kursun davam etdirilməsi münasibətlərdə gərginliyi daha da artıracaq. Bu da öz növbəsində Qərb-Rusiya rəqabətinin yaşandığı bütün istiqamətlərə, o cümlədən postsovet məkanına öz təsirini göstərəcək. Hazırda az ehtimal edilən variant kimi görünsə də, Putinin namizədliyini verməyərək kənara çəkilməsi də mümkündür. Bu variantın reallaşması dünyada yeni geosiyasi mənzərə yaradacaq. Əlbəttə ki, bu halda Putinin xələfinin kimliyi və onun fərqli siyasi kurs seçib-seçməyəcəyi həlledici əhəmiyyətə malik olacaq. Həm Putinin kursunu davam etdirən bir varisin, həm də tam əksinə, Qərblə münasibətləri yumşaltmağa çalışacaq qismən liberal fiqurun gəlməsi ehtimal daxilindədir. Eyni zamanda Putinin xalqdan bir daha mandat alaraq Qərblə münasibətlərdə yeni siyasi kurs elan etməsi və Rusiya iri biznesinin arzuladığı yumşalmanın onun özü tərəfindən həyata keçirilməsi variantını da tam istisna etmək olmaz. Hər halda, Putinin qeyri-standart addımlarını çox görmüşük və bu da mümkündür".

**Politoloq Rusiyada baş verən istənilən dəyişikliyin ölkəmizə təsirsiz ötüşməyəcəyini də qeyd etdi:** "Bütün hallarda Rusiyadakı hər hansı dəyişiklik konkret Azərbaycana təsirsiz ötüşməyəcək. Kremlin hazırda yeritdiyi siyasət və Rusiya-Qərb münasibətlərində yaranmış vəziyyət Azərbaycanı çətin vəziyyətdə qoyur. Rusiya Azərbaycanın avroatlantik inteqrasiya xəttini davam etdirməsində və bu yöndə qəti strateji seçim etməsində maraqlı deyil. Etiraf edək ki, Ukraynada baş verənlər Azərbaycan da daxil olmaqla, bütün postsovet regionunda real qorxu yaradıb. Putinin siyasəti Azərbaycanın demokratik inkişafına əngəl törədən faktorlardan birinə çevrilib. Azərbaycanın Avropaya inteqrasiyasını və demokratik inkişafını ləngidən bu amilin aradan qalxması maraqlarımıza uyğun olardı. Lakin Qarabağ məsələsi ilə bağlı Rusiyanın mövqeyində kardinal dəyişiklik gözləmirəm. Hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Rusiyanın bu bölgədəki maraqları Ermənistanla müttəfiqlik tələb edir. Əlbəttə ki, Rusiya mövcud geosiyasi konsepsiyasını dəyişərək Qərblə anlaşma yolunu seçərsə, bu çərçivədə Qarabağ məsələsinin sülh yolu ilə həlli ehtimalı da yüksələ bilər. Bu halda bizim maraqlarımıza cavab verən siyasi həllə nail olmaq üçün Azərbaycan diplomatiyasının üzərinə ciddi məsuliyyət düşəcək".

❑ **Cavanşir ABBASLI**



# Kremlin varis planı

## Rusiya prezidenti baş qatır, yoxsa ciddi planı var?

**Rusiya prezidenti Vladimir Putin ötən həftə müdafiə nazirinin müavini, general Aleksey Dyumini Tula vilayətinin qubernatoru təyin edəndən sonra yeni şayiələr yayılmağa başlayıb. İddialara görə, Dyuminin müdafiə nazirinin müavini vəzifəsindən alınaraq mülki idarəçilik sahəsinə göndərilməsi əsassız deyil və hətta onunla bağlı çox ciddi planların olmasından xəbər verir.**

Qərb dairələrində də xeyli maraq doğuran yeni təyinatın arxasında Rusiya prezidentinin varis planının dayandığı da səslənən versiyalardan biridir. Qeyd edək ki, 43 yaşlı Aleksey Dyumin Putinin cangüdəni və etibarlı adyutantı olub. Habelə, xokkey həvəskarı olan prezidentin şəxsi klubunda qapıçı mövqeyində oynayıb. Britaniyanın "Daily Mail" qəzeti isə yazıb ki, Ukraynanın devrilmiş prezidenti Viktor Yanukoviçin 2014-cü ilin əvvəlində, Kiyevdəki Maydan hərəkatı zamanı ölkədən çıxarılması və Rusiyaya çatdırılması əməliyyatına və Krımın ilhaqı əməliyyatına məhz Dyumin rəhbərlik edib. Hətta Putin sonuncu əməliyyata görə ona "Rusiya Qəhrəmanı" adı verib, general rütbəsinə layiq görüb və quru qoşunlarının komandan müavini vəzifəsinə təyin edib.

İki ay əvvəl Dyumin müdafiə naziri Sergey Şoyqunun müavini təyin olunsa da, indi o, mülki vəzifəyə keçirilib ki, bu da təbii olaraq çox böyük marağa səbəb olub. Virtualaz.org-un yazdığına görə, generalın Tula vilayətinin qubernatoru vəzifəsinə təyin edilməsi ona imkan verəcək ki, bu əyalətə rəhbərlik etməklə növbəti sürətli karyera sıçrayışı ərəfəsində siyasi təcrübə toplasın. Vaxtilə Kremlə işləyən, lakin sonradan hakimiyyətlə münasibətləri korlanan təcrübəli teleaparıcı Sergey Dorenko hesab edir ki, Putin Aleksey Dyumini özünə varis hazırlayır. Onun fikrincə, Dyuminin şansı Putinin ehtimal olunan iki potensial varisi, baş nazir Dmitri Medvedyevdən və Moskva vilayəti administrasiyasının rəhbəri Andrey Vorobyovdan daha çoxdur.

Aleksey Dyumin özü qubernator təyinatının gözlənilməz olduğunu, bu qərar barədə onu son anda məlumatlandırdıqlarını deyib. **"Vladimir Vladimiroviçlə söhbətə çağırılanda bu qərar artıq verilmişdi. Mən hərbçi adamam, vətən harada əmr etsə, orada xidmət edəcəyəm"** deyə, Dyumin bildirib. Hələ ki Kreml Putinin mümkün varisi haqda hər hansı bəyanat verməyib. Ancaq bugünlərdə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov demişdi ki, Putinin 2018-ci ildə yenidən namizədliyini irəli sürəcəyinə dair qərar hələ qəbul edilməyib. Düzdür, ekspertlər hazırda reytinqi olduqca yüksək olaraq qalan Putinin namizədliyini irəli sürəcəyinə şübhə etmirlər. Ancaq bu xəbərlərin nüfuzlu "Stratfor" təşkilatının 2025-ci ilədək Rusiyanın parçalanacağından bəhs edən hesabatının yayıldığı günlərdə tirajlanması da suallar yaradır. Bəzi müşahidəçilər hesab edir ki, Putin təhlükələri Rusiyadan kənarlaşdırmaq üçün məhz varis planının olması barədə xəbərlərin dövriyyəyə buraxılmasında maraqlıdır.



Aleksey Dyumin

**Politoloq Elxan Şahinoğlu də hesab edir ki, Putin, sadəcə, baş qatır:** "Putin 2018-ci ildə də prezidentliyə namizəd olacaq. Əgər belədirsə, indidən niyə varis haqqında düşünsün ki? Putin ikinci dəfə hakimiyyətə ona görə gəlməyib ki, tez-tələsik varisini elan etsin. Putin bəlkə də müxtəlif adların hallanması üçün ona görə şərait yaradır ki, diqqəti daxili problemlərdən yayındırsın. Digər tərəfdən, Putinin müxtəlif adların hallandırılmasında fərqli marağı da ola bilər. O, bununla potensial rəqiblərini neytrallaşdıra bilər. Məsələn, Şoyqu kifayət qədər tanınmış fiqurdur, ona tapşırılan sahələrdə uğur qazanmağı bacarır. Rusiya kimi ölkədə beləsi prezidentin varisinə deyil, hədəfinə çevrilə bilər. Çünki Putin onun adının varis kimi hallandırılmasına şərait yaratmaqla prezidentliyə can atan digər hakimiyyətdaxili qrupların hədəfinə çevirir".

**Politoloq hesab edir ki, Putinə yaxın ətrafında güclü fiqur lazım deyil:** "Vaxtilə Dmitri Medvedyevi də ona görə varis seçdi ki, o, prezident kimi heç bir iş görə bilməsin, reytinqdə onu üstələməsin və özü ikinci dəfə Kremldəki kürsüsünə yiyələnsin. Məhz belə də oldu. Çünki Medvedyev güclü dövlət başçısı olsaydı, o, növbəti dəfə də prezidentliyə namizəd olacaqdı. Medvedyev elə o zaman belə də deyirdi ki, prezident kimi reytinqi o zamankı baş nazir olan Putinin reytinqindən yüksək olsa, o, kreslosunu dostuna güzəştə getməyəcək. Ancaq Medvedyev buna nail ola bilmədi".

❑ **Cavid TURAN**

# TAP-a və TANAP-a pul tapa biləcəyikmi?

## Ekspertlər bildirirlər ki, ölkənin payını satması, yaxud yüksək faizlə borc götürüb işi davam etdirməsi gələcəkdə problemlər yaradacaq, çünki...

**Ölkədəki iqtisadi böhran səbəbindən iri layihələrin taleyi sual altındadır. Hətta TANAP və TAP kimi enerji layihələrinin tikintisinin hansı şəkildə davam etdiriləcəyi ciddi suallar doğurur. Bir çox ekspertlər bildirirlər ki, bu layihələr gələcəkdə Azərbaycan üçün gəlir yeri deyil, büdcə üçün əlavə yük ola bilər. Çünki ölkə iqtisadi böhran şəraitində hətta bu layihədəki payını məcbur olub sata bilər ki, bu da əlavə problemlər yaradacaq.**

Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, layihələrlə bağlı müxtəlif narahatedici xəbərlər dolaşır: "Əslində hətta hökumətə yaxın bəzi media orqanlarında TANAP və TAP layihələri ilə bağlı araşdırmalar gedir. Əslində Azərbaycanın bu layihələrə imza atarkən maliyyə vəziyyəti də, ölkənin iqtisadi vəziyyəti də tamamilə fərqli idi. Yəni müqavilələri imzalayarkən tam fərqli bir durumdaydıq. İndi isə getdikcə maliyyə vəziyyətimiz, ölkənin gəlirləri aşağı düşür və bu layihələrdə Azərbaycanın payı kifayət qədər yüksəkdir. TANAP layihəsində 57 faiz, "Şahdəniz 2"də 20, TAP-da da 20 faizdir. Və ümumiyyətlə, bu layihələrin maliyyələşməsinə Azərbaycan yaxın 2-3 ildə 16-18 milyard dollar vəsait xərcləməlidir. Bir hissəsi artıq xərclənib. Tək 1 milyard bu il Neft Fondundan TANAP layihəsi üçün ayrıca, büdcədənkənar vəsait ayrıldı. Bu, getdikcə artan xətlə yaxın 2-3 ildə gedəcək. Bu da Azərbaycanın indiki maliyyə durumunda ağır yük olacaq. Azərbaycanın həm rezervlərinə, həm ümumiyyətlə bu layihələrin gələcək perspektivi nöqteyi-nəzərindən ağır yük olacaq. Çünki hər iki layihənin gəlir gətirmə perspektivi kifayət qədər uzun vədəlidir. Yəni "Şahdəniz 2", TANAP və TAP layihələrinin tam gücü ilə işə düşməsi təqribən 2020-ci ildə nəzərdə tutulub. 2020-ci ildə Azərbaycan cəmi 10 milyard kubmetrə yaxın qaz sata biləcək Avropaya. Bu isə kiçik bir rəqəmdir və Azərbaycanın bir müddət qoyduğu vəsaitin geri qaytarılması ilə bağlı problemi olacaq. Problem onda olacaq ki, bir neçə il, hətta 10-15 il Azərbaycan qoyduğu vəsaitin geri qaytarılmasına çalışacaq. Qazanc haqqında danışmaq belə yersiz olacaq. Söhbət on il və daha artıq müddətdən gedir. Bu layihələrin həyata keçirilməsi təbii ki, vacibdir. Azərbaycanın gələcəkdə enerji bazarında müəyyən rol oynaması üçün çox vacib layihələrdir. Amma layihələr imzalanarkən Azərbaycan daha irəliyə baxmalı idi. Geniş bir vizyona sahib olmalı idi ki, bu problemlər yaranmasın. Amma o zaman düşünməyiblər. Çox böyük öhdəliklər götürülüb hər üç layihə ilə bağlı. Bu öhdəliklərin yerinə yetirilməsi Azərbaycana yük gətirəcək yaxın illərdə. Azərbaycan məcburən bəzi layihələrdə ya payını satmalı olacaq, ya da xarici donorlardan borc kredit götürərək öz payının maliyyələşməsinə getməli olacaq. Hər iki variantın da Azərbaycan üçün mənfi cəhətləri var. Biz öz payımızı satsaq, həmin layihələrdə gələcəkdə daha az söz sahibi olacağıq. Borca girsək də, Azərbaycanın indiki durumunda borcları daha yüksək faizlə verəcəklər. Gələcəkdə qazancımızı elə faiz ödəməyə sərf etmiş olacağıq. Yəni müxtəlif nöqteyi-nəzərlərdən baxanda, bu layihələrlə bağlı yaxın zamanlarda, yaxın illərdə biz problem yaşayacağıq".




**Qeyd edək ki, bir müddət əvvəl Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov bildirmişdi ki, Azərbaycan Trans-Anadolu Qaz Boru Xəttindəki (TANAP) payını beynəlxalq maliyyə bazarları vasitəsilə həyata keçirməlidir:** "TANAP-ın maliyyələşdirilməsinə gəlincə, yəqin ki, biz beynəlxalq maliyyə bazarları vasitəsilə bu layihədə olan payımızı maliyyələşdirməyə keçməliyik ki, valyuta balansımız üçün əhəmiyyətli gərginlik yaranmasın". Həmçinin Avropa İnvestisiya Bankının (EIB) Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsinə 1 milyard avro vəsait ayıra biləcəyi barədə informasiyalar layihənin icrasında problemlər yarandığını deməyə əsas verir. EIB-in direktorunun müavini Pim Van Ballekom bildirmişdi ki, məqsəd "Botaş" şirkəti vasitəsilə layihəyə dəstək olmaqdır: "Çünki Dünya Bankı da bu layihəyə maliyyə vəsaiti ayırmağı planlaşdırır. EIB-in həmin bu vəsaitinin aprelin sonuna kimi təsdiq olunması və ilk ödənişin isə avqustun sonunadək həyata keçirilməsi nəzərdə tutulur".

Qeyd edək ki, Cənubi Qafqaz Boru Kəməri (CQBK) və TAP boru kəmərinə birləşərək "Cənub qaz dəhlizi"nin əsas hissəsini təşkil edən TANAP-ın uzunluğu *(19 kilometri Mərmərə dənizindən keçməklə)* ümumilikdə 1850 kilometr olacaq. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı nəql edəcək TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ardahan vilayətinin Posof mahalından başlayaraq 21 vilayətdən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanacaq. Boru kəmərinin 2018-ci ildə istismara verilməsi planlaşdırılır. TANAP-la Avropaya 10 milyard, Türkiyəyə isə 6 milyard kubmetr Azərbaycan qazının nəqli nəzərdə tutulur. TANAP Cənubi Qafqaz Boru Kəmərindən alacağı təbii qazı 2020-ci ilin əvvəlindən etibarən TAP boru kəmərinə qoşularaq Yunanıstan, Albaniya və İtaliyadan keçməklə Avropaya çatdıracaq. TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub qaz dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti (QSC)- 58 faiz, "Botaş"- 30 faiz və BP şirkəti- 12 faiz.

"Trans-Adriatik" (TAP) qaz boru kəmərinə gəldikdə isə bildirilir ki, bu, "Cənub" qaz dəhlizinin mühüm hissəsidir. "Cənub" qaz dəhlizi isə dünyanın ən böyük infrastruktur boru layihəsi kimi təqdim edilir. Azərbaycanın "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub" qaz dəhlizi Cənubi Qafqaz Boru Kəməri (CQBK), Trans-Anadolu qaz boru kəməri (TANAP) və TAP qaz boru kəmərlərindən ibarətdir. Uzunluğu təxminən 870 kilometr olan TAP boru kəməri Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində Trans-Anadolu qaz boru kəmərinə (TANAP) birləşəcək. TAP layihəsi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın səhmdarları belədir: bp (20 faiz), SOCAR (20 faiz), Snam S.p.A. (20 faiz), Fluxys (19 faiz), Enagas (16 faiz) və Axpo (5 faiz).

❑ **RÖYA**



# Deputat bu dəfə bələdiyyələri hədəfə aldı

## Fəzail İbrahimli: "Bələdiyyə sədrlərinin adı ancaq torpaq alverçisi kimi tanınıb"

**Milli Məclisin növbəti plenar iclası fevralın 12-də keçiriləcək. Dünən isə Milli Məclisin (MM) Regional məsələlər komitəsinin iclası keçirilib. Komitə sədri Arif Rəhimzadə Ədliyyə Nazirliyinin (ƏN) Bələdiyyələrlə İş üzrə Mərkəzini və nazirliyi tənqid edib.**

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik hesabatının MM-in Regional məsələlər komitəsində müzakirəsi zamanı A.Rəhimzadə deyib: "Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş üzrə Mərkəzi fəaliyyətini tək bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət həyata keçirməklə məhdudlaşdırmamalıdır". Gün.az-ın xəbərinə görə, komitə sədri bildirib ki, artıq 16 ildir ki, bələdiyyələr yaradılıb, fəaliyyət göstərir və müəyyən problemlərlə üzləşirlər. Onun sözlərinə görə, Bələdiyyələrlə İş üzrə Mərkəz də artıq bələdiyyələrin fəaliyyətinə başqa nöqteyi-nəzərdən yanaşmalıdır: "Bələdiyyələrlə İş üzrə Mərkəz bələdiyyələrin qarşısında duran vəzifələrin həllinə çalışmalıdır. Bu problemlərin bir hissəsinin həlli qanunvericiliklə bağlıdır və yaradılan İşçi Qrupu bu məsələlərlə məşğul olacaq. Ancaq bələdiyyələrin fəaliyyətinə elə maneələr var ki, bunu Ədliyyə Nazirliyi digər nazirliklərlə qarşılıqlı şəkildə birgə aradan qaldıra bilər. Bir məqamı da qeyd etmək istəyirəm. Telekanallarda bələdiyyələrlə bağlı bir veriliş yoxdur. İndiyə qədər Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş üzrə Mərkəzi telekanallarla ayda bir dəfə, iki dəfə belə bir verilişin işıq üzü görməsi üçün müraciət edibmi? Müraciət edibsə, nəticəsi nə olub? Elə Milli Məclis də televiziyaya belə bir müraciət etməyib. Ancaq bu gün televiziyalarda o qədər lüzumsuz verilişlər var ki! Ümumiyyətlə, ayrılıqda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş üzrə Mərkəzi deyil, Ədliyyə Nazirliyi bütövlükdə bələdiyyələrin qarşısında duran vəzifələrin yerinə yetirilməsi ilə məşğul olmalıdır. Biz hamımız bələdiyyələrə dəstək verməliyik".

**Vətəndaş Həmrəyliyi Partiyasından (VHP) olan deputat Fəzail İbrahimli isə bələdiyyə sədrlərinə və bələdiyyələrə qarşı sərt ittihamlarla çıxış edib. O, bələdiyyələri və bələdiyyə sədrlərini konkret fəaliyyət, layihələr ortaya qoymağa çağırıb:** "Siz eləcə vergilərdən danışırsınız. Sizi başqa məsələlər maraqlandırmır? Sizin işiniz-gücünüz elə vergi yığımı məsələsidir? Molla yas yerindən xüms-zəkat istədiyi kimi, siz də ancaq vergi istəyirsiniz! Niyə konkret fəaliyyət ortaya qoymursunuz? İnciməyin, bələdiyyələrin, bələdiyyə sədrlərinin adı ancaq torpaq alverçisi kimi tanınıb. Bu, az qala sizin alnınıza yazılıb. Bəlkə belə deyil?" **F.İbrahimli daha sonra əlavə edib:** "Düzdür, əvvəlki illərlə müqayisədə bu məsələnin qarşısı qismən alınıb, amma hər halda, bələdiyyələr haqqında formalaşan bu "imic" hələ də aradan qaldırılmayıb. Ona görə vergi, əlavə səlahiyyətlər istəməkdənsə, əməli fəaliyyətinizlə bu "imici" aradan qaldırmağa çalışın".

Qeyd edək ki, F.İbrahimli bundan əvvəl nazirləri deputatların zənglərinə cavab vermədiklərinə görə kəskin tənqid etmişdi.

❑ **Cavid TURAN**

# Avtomobilə aldığınız etibarnamələr etibarsız ola bilər

## Müzəffər Baxış: “Avtomobilin etibarnamə ilə idarə edilməsi mülki hüququn prinsiplərinə ziddir”



**Bu gün avtomobil idarə edənlərin əksəriyyəti etibarnamə alır. Xalq arasında “baş etibarnamə” adlanan bu sənəd avtomobili əldə edən şəxsə onu sonradan öz yaxınlarından kiminsə adına keçirməyə də imkan verir.**

Mayın 1-də qüvvəyə minəcəyi gözlənilən yeni məcəlləyə görə isə əgər nəqliyyat vasitəsinin mülkiyyətçisi, yaxud etibarnamə və ya icarə müqaviləsi əsasında onu idarə etmək hüququ olan şəxs avtomobildədirsə, həmin avtomobili sürücülük hüququ olan istənilən şəxs etibarnaməsiz də idarə edə bilər. Başqa sözlə, etibarnamə yalnız sürmək üçün verilmiş olsa da, belə etibarnaməsi olan şəxs avtomobildədirsə, onu digər şəxs hər hansı problemsiz idarə edə bilər. Bu yenilik daha çox “ayıq sürücü” xidmətindən istifadə edənlərin işini asanlaşdırmış olacaq. Xatırladaq ki, hazırda qüvvədə olan məcəllə nəqliyyat vasitəsini etibarnamə olmadan yalnız onun sahibi avtomobildə olduqda idarə edilməsinə icazə verir.

**Hüquqşünas Müzəffər Baxış avtomobilin etibarnamə ilə idarə edilməsinin mülki hüququn prinsiplərinə zidd olduğunu dedi:** “Etibarnamə əslində təmsilçilik institutudur. Yəni kimisə digər şəxsi təmsil etmək üçün o şəxsə verilən bir sənəddir. Tutaq ki, hansısa səlahiyyətlər notarial qaydada verilməlidir, həmin səlahiyyətlər notarial qaydada təsdiq edilmiş etibarnamə ilə verilir. Elə institutlar var ki, onları təmsilçi vasitəsilə həyata keçirilə bilməzlər. Tutaq ki, kimsə nikah münasibətinə girirsə, o kiməsə etibarnamə verə bilməz ki, həmin adam gedib onu təmsil edib nikah müqaviləsini imzalasın. Müəyyən məsələlər var ki, onu bizdə təmsilçi vasitəsilə həyata keçirmək qadağandır. Ümumilikdə isə təmsilçilik institutunun ləğv edilməsi haqda eşitməmişəm. Amma nəqliyyat vasitələrinin idarə edilməsi ilə bağlı belə bir məsələ vardı ki, onu idarə etmək etibarnamə ilə yox, müqavilə ilə tənzimlənməlidir. Çünki etibarnamənin mahiyyəti ondan ibarətdir ki, hansı şəxsə səlahiyyət verirsənsə, o üçüncü şəxs qarşısında səni təmsil edir. Amma avtomobili idarə etməkdə o, üçüncü şəxs qarşısında səni təmsil etmir, sadəcə olaraq, avtomobili idarə edir. Etibarnamə bir tərəfli əqddir. Yəni etibarnaməni kim verirsə, onun iradi ifadəsi orada təmsil olunur. Amma mən maşını kiməsə idarə etməyə verirəmsə, o da maşını idarə edirsə, bu, müqavilə münasibətidir. Bu ikitərəfli əqddir. Burada həm maşını idarə edənin, həm də maşını verənin iradə ifadəsi olmalıdır. Ona görə də bunlar arasında müqavilə bağlanmalıdır. Bizdə həmin institut etibarnamə vasitəsilə həyata keçirilir. Bu isə əslində mülki hüququn prinsiplərinə ziddir. Amma etibarnamənin, ümumiyyətlə, təmsilçilik institutunun ləğv edilməsi çətin məsələdir. Bu institutu ləğv etmək istəsələr, gərək qanunvericilikdə ciddi dəyişikliklər edilsin. Mən düşünmürəm ki, belə bir dəyişiklik olsun. Amma avtomobillərin idarə edilməsi ilə bağlı institut müqavilə münasibətləri ilə tənzimlənsin. Yəni kimsə kiməsə avtomobilini idarə etməyə verirsə, onunla müqavilə bağlasın”.

**Hüquqşünas avtomobillə bağlı verilən etibarnamələrdə sui-istifadə halları yaşandığını dedi:** “Bizim qanunvericiliyə görə əmlak üzərindən xüsusən də avtomobil idarə etməklə bağlı sərəncam verilməsi ilə bağlı etibarnamələr bir illik verilir. Həmin etibarnamə ilə müddət azaldılıb. Amma avtomobil nəqliyyatı üzərindən sərəncam verməklə bağlı etibarnamələrdə bir sıra sui-istifadə halları yaşanır. Əslində onlar avtomobili faktiki alqı-satqı ilə alır. Avtomobilin mülkiyyətçisi ona sərəncam vermək səlahiyyətinə etibarnamə verir. Sonra isə o avtomobili alan şəxs üçün çox ciddi problemlər yaranır. Mülkiyyətçinin bankla və ya digər şəxslərlə hər hansısa problemi yaranarsa, onun əmlakı məhkəmə qətnaməsi ilə qəbul olunur. Məhkəmənin qərarı olaraq avtomobili məcburi hərrac məsələsi ortaya çıxır. Bu zaman avtomobili faktiki olaraq alan şəxs, ona etibarnamə ilə sürməyə səlahiyyət verilən şəxs pis vəziyyətdə qalır. Avtomobili onun əlindən alırlar. Bu zaman gərək bu şəxs avtomobilin alqı-satqısı haqdakı müqavilə ilə məhkəməyə müraciət etsin. Bu da çox uzun bir proses tələb edir. Bu cür problemlərin ortaya çıxmaması üçün insanlar belə hərəkətlərdən çəkinməlidirlər. Hansı avtomobili alırlarsa, dərhal alqı-satqı haqqında müqavilə bağlamalı və ya avtomobili etibarnamə ilə satın alma təcrübəsindən imtina etməlidir”.

❑ **Günel MANAFLI**

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99



## “Nar” kimsəsiz və aztəminatlı ailələrdən olan uşaqlar üçün peşəkar boks məşqləri təşkil etdi

**“Nar” korporativ sosial məsuliyyət strategiyası çərçivəsində “Rabitə” idman klubu ilə birgə yeni sosial layihənin başlanğıcını elan etdi. İdman və gənclərin asudə vaxtının səmərəli təşkil edilməsinə yönəlmiş layihə çərçivəsində kimsəsiz və aztəminatlı ailələrdən olan 15 azyaşlı üçün “Rabitə” idman klubunda pulsuz peşəkar boks məşqlərinə start verildi.**

**Aralarında Olimpiya oyunları, dünya və Avropa çempionatları, eləcə də Azərbaycan birinciliklərində yüksək nəticələr göstərərək, müxtəlif uğurlara imza atmış idmançıların keçirdikləri məşqlər azyaşlıların böyük sevincinə səbəb oldu. Layihə çərçivəsində uşaqlar üçün peşəkar idmançıya lazım olan hər cür idman ləvazimatları və onların məşq zalına gəlmələri üçün nəqliyyat təşkil edildi.**

**Qeyd edək ki, sosial layihə “Rabitə” idman klubunun “Nar” mobil operatoru tərəfindən sponsorluğu çərçivəsində həyata keçirilir. “Rabitə” idman klubu 30-dan çox peşəkar boksçunu öz ətrafında birləşdirir. Klubun yetirmələri 5 illik dövr ərzində müxtəlif beynəlxalq turnirlərdə yüzlərlə medal qazanaraq yüksək nəticələr göstərmişlər.**

## İmişliyə ova gələn ərəblər kanalda boğuldular

**APA-nın Mil-Muğan bürosunun verdiyi məlumata görə, yanvarın 8-də gecə saatlarında bir qrup ərəb mənşəli vətəndaş İmişli rayonunun Xəlifəli kəndinin çöl sahəsində ov edərkən idarə etdikləri “Toyota Prado” markalı avtomobil su kanalına düşüb. Nəticədə avtomobilin sürücüsü, 45 yaşlı Səudiyyə Ərəbistanı vətəndaşı Salam Əli Əlmari və sərnişin, Qətər vətəndaşı, 37 yaşlı Misali Zeyd Əl Subuhi suda boğularaq ölüblər. Daha bir nəfər, 26 yaşlı Qətər vətəndaşı Əbail Əziz Sədəl Kabi İmişli rayon xəstəxanasına yerləşdirilib. Ölən şəxslər sudan çıxarılaraq İmişli rayon patoloji anatomiya və tibbi ekspertiza mərkəzinə təhvil verilib.**

Xəlifəli kəndinin çöl sahəsində qanunsuz ov edərkən kanala düşən xarici ölkə vətəndaşlarına Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ov icazəsi verilməyib. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Aparılan araşdırmalar zamanı məlum olub ki, həmin şəxslər, Səudiyyə Ərəbistanı və Qətər vətəndaşları və onları ölkəyə dəvət edənlər tərəfindən müvafiq ov icazəsinin alınması üçün ETSN-ə hər hansı müraciət olunmayıb. Ona görə də onların ov icazəsi olmaması səbəbindən gecə saatlarında qanunsuz olaraq ov sahəsinə çıxdıqları ehtimal olunur.

İmişli rayon xəstəxanasının baş həkiminin müavini Fərahim Məlikov "Trend"ə bildirib ki, İmişlidə yol qəzasına düşərək yaralanan Qətər vətəndaşı Əbail Əziz Sədəl Kabinin vəziyyəti kafi qiymətləndirilir. 26 yaşlı Qətər vətəndaşı yüngül xəsarətlər alıb, onun sol çiyni sıyrılıb, boynu əzilib. Xəstədə heç bir sınıq qeydə alınmayıb. O, yanvarın 9-da xəstəxanadan çıxarılıb.

## Bakıda tələbə qız məktub yazıb özünü öldürdü

**Fevralın 8-də Bakıda intihar hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, hadisə Yeni Yasamal 2, bina 5 ünvanında qeydə alınıb. Orada yaşayan 1993-cü il təvəllüdlü Vahabova Nigar Tahir qızı özünü asaraq intihar edib. 23 yaşlı Nigar Vahabovanın yaşadığı mənzildə intihar etməsi ilə bağlı bəzi məqamlar üzə çıxıb. Lent.az-ın hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, N.Vahabova intihardan əvvəl valideynlərinə məktub yazıb. O, məktubunda valideynlərindən üzrxahlıq edib, etdiyi əmələ görə onu bağışlamalarını istəyib. Gənc qız ata-anasını incitdiyini və buna görə çox məyus olduğunu qeyd edib.**

Bildirilir ki, N.Vahabova Koorperasiya Universitetinin 3-cü kurs tələbəsi olub. Son vaxtlar onların ailəsində müəyyən problemlər, eləcə də maddi sıxıntılar varmış. Qeyd edək ki, N.Vahabova jurnalist, İTV-nin əməkdaşı Aytac Vahabovanın bacısıdır. A.Vahabova bacısının ölümü ilə bağlı sosial şəbəkədə səhifəsində status yazıb.

## Ölkə yollarında qırğın kimi qəzalar: 5 ölü, 11 yaralı

**Yanvarın 8-də Azərbaycanın müxtəlif yerlərində ağır yol qəzaları baş verib. Lent.az-ın məlumatına görə, fevralın 8-də respublika yollarında ümumilikdə 11 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 5 nəfər dünyasını dəyişib, daha 11 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Ölümlə nəticələnən qəzaların hamısı rayonlarda baş verib. İmişlidə ov edən ərəblərin olduğu “Toyota”nın kanala aşması nəticəsində 2 nəfər ölüb. Zaqatala, Balakən və Cəlilabadda baş vermiş qəzaların hər birində isə 1 nəfər ölüb.

YENİ MÜSAVAT
N 31 (6352) 10 fevral 2016



# Həbsdəki köməkçisi İlhaməni Qurd Cəbrayıla bənzətdi

## Mehriban Hüseynova: "Güzgüyə bax, keçmişini xatırla və yadına sal ki, oxuduğun institutdan niyə və nəyə görə qovulmusan?"

**Xalq artisti İlhamə Quliyevanın həbs etdirdiyi köməkçisi Mehriban Hüseynova redaksiyamıza yeni məktub yollayıb. Soyğunçuluğa cəhd ittihamı ilə hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan M.Hüseynova məktubunda müğənnini yalan danışmaqda ittiham edir.**

### Ortada İlhaməni titullarından edəcək kompromat materialı var

**Məktubu bəzi ixtisarlarla təqdim edirik:** "İlhamə Quliyevanın aldığı nəfəsdən başqa dedikləri hamısı yalandır. Belə ki, evində onun bandası tərəfindən mənliyim alçaldılıb, təhqir edilib və telefonla çəkilən kadrı ATV kanalı mənim rəyim olmadan yayımlayıb və ictimaiyyətdə mənə qarşı mənfi rəy yaradılıb. Bu hansı qanuna uyğundur? Bəs MTRŞ-nin rəhbəri Nuşirəvan Məhərrəmli niyə bu süjetin qanunsuz olaraq efirə getməyinə indiyəcən göz yumur? Yuxarıda adları çəkilən hər bir verilişin heyəti və aparıcıları qanun qarşısında cavab verəcəklər".

### "Güzgüyə bax, keçmişini xatırla..."

**M.Hüseynova məktubunda müğənniyə keçmişi ilə bağlı suallar da ünvanlayıb:** "İlhamə hər dəfə müsahibələrində məni qulluqçusu kimi təqdim edir. Qulluqçu olmaq ayıb deyil, onlar halal zəhmətlə, alın təriylə pul qazanırlar. Daha sənin kimi kimlərisə şərləyərək əsassız təzminatlar almırlar. Əgər sənin qulluqçun idimsə, mənim dövlət tədbirlərində, xarici səfərlərdə, səyahət və qonaqlıqlarda, sənin əvəzində televiziyalarda nə işim var idi? Məgər qulluqçunu efirlərdə jurnalist-şairə kimi təqdim edirlər? Mən sənə qədər də efirlərdə jurnalist-şairə kimi çıxış etmişəm. Və iş fəaliyyətimə görə telekanallardan biri məni yüksək maaşla işə götürmək istəyəndə də sən razılaşmayıb məni öz yanına çağırdın. Onda hələ iş birliyimiz olmadığına görə səni yaxşı tanımırdım. İlhamə, deyəsən, sən keçmişdə kim olduğunu yadından çıxartmısan? Güzgüyə bax, keçmişini xatırla və yadına sal ki, oxuduğun institutdan niyə və nəyə görə qovulmusan?"

### "Səndə tamah, nəfs və pula hərislik o qədərdir ki..."

**M.Hüseynova məktubunda bıçaqlanması haqda yazır:** "Xalqın səni artıq necə tanıdığını isə internet saytlarında, statuslarda onların yazdıqları rəylərdən görə bilərsən. Sənin nəinki məni, sənətlə sevilən digər xanım sənətçiləri də görməyə gözün yoxdur. Səndə tamah, nəfs və pula hərislik o qədərdir ki, hər kəsi şərləyib pul təzminatı kəsdirməyə çalışırsan. Necə ki, mənim də istintaqımın ilk günündə 45 min manat bizdən pul tələb edirdin. Nazpəri Dostəliyevadan ağzına şirə qaldığından Elza Seyidcahanın da üstünə haqsız yerə şığıdın. Mədəniyyət Nazirliyi bir kənara qalıb mədəniyyəti İlhamə Quliyeva idarə edir. İstənilən aparıcı və müğənnini efirdən uzaqlaşdırır və ya hansı müğənnilərinsə efirə çıxmasına qadağa qoydurur. Biz görmüşük ki, bu yaşda olan ahıllardan gənc nəsil



ibrət götürər. Bu isə 73 yaşında adını məcburən AzTV-yə yazdırıb yüksək maaş alır. İlhamə Quliyeva "Arxadan vurulan zərbə" kinosunda Qurd Cəbrayılın qadın surətidir ki, mən də onun yeqin ki, son qurbanı oldum. Ataraq mənim ayağıma vurduğu səlist bıçaq zərbəsi buna bariz nümunədir. Bu haqda mənim təsdiqedici ekspert rəyim də var".

### "Efirdə deməyimə baxma, məcburam, ondan zəhləm gedir"

**M.Hüseynova İ.Quliyevanın onu tutdurmasının səbəbinə də aydınlıq gətirdi:** "Əslində İlhamənin ekrana çıxıb "mənim xalqım", "mənim dövlətim", "mənim kimim..." və s. deməsi yalan və süni sözlərdir. Çünki evdə dövlətimizin mötəbər, yüksək xanımlarını televiziyada görəndə onları söyür, haqlarında nalayiq sözlər işlədirdi. Mən iradımı bildirəndə isə üstümə qışqıraraq "sən səsini kəs! Efirdə deməyimə baxma, məcburam, ondan zəhləm gedir" deyirdi. İlhamə Quliyevanı yaxından tanıyan hər bir kəs bilir ki, o, özünü nəinki Azərbaycanda, Qafqaz və bütün türk dünyasında ən birinci xanım hesab edir. Ona görə də hər kəsə yuxarıdan aşağı baxaraq öndə gedən xanımları görməyə gözü yoxdur. Həmin ərəfədə rəfiqəm Kəmalə Rüstəmovaya pul lazım olduğundan mən bankdan kredit götürərək üst-üstə 5 min manat ona pul vermişdim. Kəmalə mənimlə bir-iki dəfə İlhamənin evinə getdiyindən onlar artıq bir-birilərini tanıyırdılar. İlhamə oğlu Orxanı isə heç evinin kandarına belə buraxmırdı. Orxana da pul lazım olduğuna görə dostu Vüqar Bəkirovun vasitəsilə İlhaməyə sifarişlər göndərirdi. Nəhayət, Orxanla Vüqar İlhaməyə və mənə qarşı birgə plan qurdular. Kəmalə Rüstəmovanın da bu plandan xəbəri oldu və ona da sərf edirdi ki, mən tutulum, beləcə, bankdan götürüb ona verdiyim 5 min manatı rahatca mənimsəsin. Ona görə də Orxanla Vüqara qoşuldu. Kəmalənin mənə qarşı belə edəcəyini heç ağlıma da gətirməzdim. Orxanla Vüqarın iyrənc və yalançı planları həyata keçəndən sonra İlhamə mənimlə mübahisə etdi, qışqırdı və onunla da mən ayrılaraq çıxıb evə gəldim, İlhamə ilə işləməyə son qoydum. Səhəri gün Kəmalə bu işin belə qurtardığını görüb İlhaməyə deyir ki, sənin səsini, o "adam" haqda dediyin nalayiq sözləri Mehriban telefonuna yazıb".

**M.Hüseynova yazır ki, Kəmalə Rüstəmova həmin gün ona zəng edib şirin dillə ora çağıraraq bildirib ki, İlhamə üzr istəyib barışmaq istəyir:** "Kəmalə and-aman edib məni ora çağırdı. Mən Kəmaləyə inanıb İlhamə Quliyevanın evinə getdim. ATV-nin yayımladığı süjetdə göründüyü kimi mən içəri girən kimi mənə elə ilk sillə vuran da Kəmalə oldu. İlhamə də



onun məni vuran əllərindən öpüb sağ ol, canım dedi. Mən nə baş verdiyini anlamadığımdan şokda idim. Qalanlarını isə onların necə məni təhdid və təhqir etmələri artıq ATV-dən başqa hər kəsə bəllidir. Çantamdan Vüqar 300 manatı götürərək güldü. O pul mənim həyat yoldaşımın dərman pulu idi. Daha sonra İlhamənin bandasının üzvlərindən imkanlı müğənnilər haqda ona məlumat çatdıran jurnalist Faiq Ələkbərli və özünü prezidentin qohumu kimi təqdim edən Aidə adlı qadın da var idi. Onlar tez mənim telefonumu götürüb o biri otağa keçdilər. Otaqdan qayıdandan sonra İlhamə Quliyeva stolun üstündəki bıçağı zərbə ilə mənə atdı. Bıçaq mənim ayaq nahiyəmin yuxarı hissəsindən batıb zədələdiyindən çoxlu qan axmağa başladı. Yara dərin olduğundan yod vursalar da, qan dayanmırdı. Yaramın qanını sildiyim paltar büsbütün qan idi. Həmin qanlı paltar da İlhamənin evindədir. Çox güman ki, indi onu yoxa çıxardıb. Halımın getdikcə pis olduğunu görüb neçə saatdan sonra telefonumu da özümə verib məni evdən buraxdılar və bu barədə bir kimsəyə deməyəcəyim haqda məni hədələdilər. Onlar telefonumda özlərinə lazım olan nömrə və yazıları silmişdilər. İlhamənin hegemonluğundan və ona arxa dayanan bir neçə nəfər yüksək orqan işçilərindən çəkinib bu barədə heç kimə bildirmədim. Lakin şəhəri Bakı Şəhər Baş Polis İdarəsinə istintaqa çağırılanda mən də gedib aldığım bıçaq xəsarətinin ekspert rəyini çıxartdırdım. Bakı Şəhər BPİ-də izahatımı alandan bir gün sonra məni evə buraxdılar. Yoldaşımın dərmanlarına pul lazım olduğu üçün axşam rəfiqəmgilə getməli oldum. Gecə saat 2 radələrində rəfiqəm məni öz maşını ilə evə gətirərkən binanın həyətində İlhamənin, Orxanın və Vüqarın dayanıb məni gözlədiyini görüb qorxumdan bilmədim nə edim. Bizim maşının üstünə gəlirdilər. Rəfiqəm tez maşının qapılarının düyməsini içəridən bağlayaraq mənə dedi ki, tez "102"yə zəng et. Mən əllərim əsə-əsə zəng etdim. İlhamə maşının qabaq hissəsini əlləri ilə bərk-bərk döyərək qışqırırdı ki, "səni mən tutdurub içəri atdırmışam, hansı köpəkoğlu cürət edib səni buraxıb?!" Rəfiqəm vəziyyətin gərgin olduğunu görüb gecənin o saatında əlini siqnalın üstünə qoyub ətrafa səs saldı. Bizim binadan başqa qonşuluqda olan 3 binanın da sakinləri kimi balkona, kimi həyətə çıxıb nə baş verdiyini anlamaq istəyirdilər. Həm çoxlu insanların toplaşdığını, həm də polisin gələcəyini eşidib İlhaməgil maşına oturub tələsik getdilər. Lakin polislər gəlmədiyindən mən qorxumdan maşından çıxmırdım. Qonşu binada yaşayan müstəntiq də səsə gəlib nə baş verdiyini biləndən sonra polisə zəng edib niyə hadisə yerinə gəlmədiklərini soruşdu. Polisdən bildirdilər ki, özləri təzədən zəng edib dedilər ki, hər şey yaxşıdır, gəlməyin. Bunu isə Vüqar bizim həyətdən çıxan kimi polisə zəng edib yalandan deyib ki, biz zəng eləmişdik, indi də zəng etdim ki, hər şey yaxşıdır, sağ olun. Həyətdəki polis işçisi bunun yalan olduğunu deyəndən sonra 5-ci bölmənin polisləri gəlib məni maşından düşürdüb evə apardılar. Polislər bu haqda akt tərtib edib istintaqa təhvil verdilər. Həmin gecə keçirdiyim stress və qorxudan üstümə 2 dəfə həkim gəldi. Bundan bir neçə gün sonra Bakı Şəhər Prokurorluğuna çağırılmışam və orada da ağır maddə ilə haqqımda həbs-qətimkan tədbiri seçilib. İlhamə Quliyeva hüquq-mühafizə orqanlarında çalışan yüksək vəzifəli bir-iki dostuna arxalanaraq bu hegemonluğu edir. Mənim bir qardaşım şəhid, biri də Qarabağ uğrunda əlil oldu ki, İlhamə kimilər və ona havadar olanlar tutduqları mövqedən istifadə edərək günahlı-günahsız bizləri azadlıqdan məhrum etsinlər? Dövlətimizin qanunlarına hörmətlə yanaşıram və əminəm ki, aparılan istintaq ədalətlə yekunlaşaraq əsl cinayətkar öz cəzasını alacaq".

**Məktub müəllifi müğənninin 4 nömrə telefonunun detallarını yazır:** "İlhamə Quliyeva ətrafda elə imic yaratmışdı ki, guya istədiyi vaxt 4 rəqəmlə zəng edib prezidentlə danışır. Hər hansı bir məkanda görüşdüyü orta məmurlarla da söhbət əsnasında razılıq olaraq deyirdi ki, "prezidentlə danışanda bu haqda deyərəm". İndi mən həqiqəti sübutla deyəndən sonra İlhamənin və ona havadar olanların aqibəti necə olacaq?"

**M.Hüseynova müğənnini ifşa edəcək səs yazısının əlində olduğunu da qeyd edir:** "İlhamə Quliyeva, elə bilirsən, sənin səs yazman yoxdur? Düşün ki, o səsyazma ilə səni nə gözləyir? Sənin həmin söyüşlərinin səsyazması artıq istintaqa təqdim olunub".

❑ **Hazırladı: E.HÜSEYNOV**

# YENİ MÜSAVAT

Son səhifə

N 31 (6352) 10 fevral 2016




## Messi dünyanın ən bahalı maşınına sahib oldu

"Barselona"nın ulduzu, dünya şöhrətli argentinalı futbolçu Messi bu dəfə dünyanın ən bahalı maşını alması ilə gündəmə gəlib. Parisdəki klassik avtomobil hərracında 1957-ci il modeli olan "Ferrari 335 S Spider Scaglietti" satışa çıxarılıb. Maşın 32 milyon avroya özünə alıcı tapıb. Avtomobilin ilkin qiyməti 20 milyon avro olub. Bu bahalı klassik maşını alan şəxsin adı dərhal açıqlanmasa da, az sonra onun dünya şöhrətli futbolçu olduğu bilinib. Hərracdan sonra ağla gələn iki ad olub: Kriştiano Ronaldo və Lionel Messi. Ronaldonun da bu hərraca qatıldığı, lakin ən yüksək qiyməti Messinin verdiyi deyilir. Argentinalı futbolçunun yaxın çevrəsi bu barədə xəbərləri təkzib etsə də, onun top qovduğu "Barselona" klubu dolayı yolla da olsa oyunçusunun klassik maşına sahib olduğunu deyib.

Qeyd edək ki, "Barselona"nın argentinalı hücumçusu Lionel Messi əməliyyat olunacaq. Bu barədə Katalon mətbuatı xəbər yayıb. Argentinalı futbolçu ağrılar səbəbindən komandanın son məşqini buraxıb. Kataloniya təmsilçisinin ulduz futbolçusu Lionel Messinin bir müddət əvvəl böyrəyində daş aşkarlanıb. Məhz bu səbəbdən Argentina millisinin üzvü uzun müddətdir əziyyət çəkir.

## Ömrü uzadan dərman tapıldı

Amerikada insan ömrünü uzadan dərman hazırlanıb. "Maylo Clinic" xəstəxanasının rəhbərlinin verdiyi açıqlamadan məlum olub ki, "Gənclik bulağı" adlandırılan dərmanların köməyi ilə bədəndəki yaşlı və məhv olmuş hüceyrələr çıxarılır. Yeni hüceyrələrin isə yaşlanması gecikdirilir. Təcrübədə iştirak edən şəxslərin ömürlərinin 35% uzandığı məlum olub. Dərmandan istifadə edən şəxslərdə qırışıqlıq, əzələ əriməsi, katarakt kimi problemlər də aradan qalxıb. Araşdırmanın rəhbəri olan Darren Baker "hazırladığımız dərmanlarla insan ömrünü uzatmaq istəyirik" - deyə açıqlama verib.



## Xroniki yorğunluq sindromu

Xroniki yorğunluq bir sindromdur. Xüsusilə təhsilli, gəlir səviyyəsi yüksək və çalışan seqmentdəki ağ irqdə daha sıx görülür. Xroniki yorğunluq sindromu çox ciddi bir sağlamlıq problemi olmasa da bir çox adama təsir edir. Xəstəlik təxminən yüzdə yetmiş nisbətində qadınları və xüsusilə də 30-50 yaş qrupunu təsiri altına alır. Bu mərəz hələlik rəsmi qeydə alınmayan, çox zaman diaqnozu qoyula bilməyən və gözdən qaçan bir problemdir. Bununla belə, Avropa ölkələrində və Amerikada xroniki yorğunluq sindromu uzun müddətdir ki, geniş yayılıb.

Sindrom ən azı 6 ay və ya daha uzun bir müddət davam edir. Xroniki yorğunluq sindromu diaqnozunu təyin etmək üçün tibbi tarixçə, fiziki müayinə, ruhi vəziyyətin və laboratoriya tapıntılarının qiymətləndirilməsi lazımdır.

Eyni zamanda aşağıdakı simptomlardan 4 və ya daha çoxunun olması və bunların ardıcıl 6 ay və ya daha uzun müddət ərzində davam etməsi və yorğunluqdan daha əvvəl başlaması lazımdır.

1. Qısa müddət ərzində yaddaşda və ya konsentrasiyada əhəmiyyətli pozulma
2. Boğaz ağrısı
3. Limfa vəzilərində həssaslıq
4. Əzələ ağrısı
5. Müxtəlif oynaqlarda qızartı və ya şişlik olmadan ağrı olması
6. Yeni yaranan, şəkil dəyişdirən və ya ciddiləşən baş ağrısı
7. Səhər oyanan zaman özünə gələ bilməmə (yuxulu olma halının davam etməsi)
8. Edilən bir iş sonrası 24 saatdan daha çox müddətdə keçən qırıqlıq.



## Ərəblər Xoşbəxtlik Nazirliyi yaradır

Birləşmiş Ərəb Əmirliyində (BƏƏ) yeni nazirlik qurulur. Ölkənin baş naziri və Dubay şəhərinin əmiri Məhəmməd bin Rəşid əl Maktum bu barədə açıqlama verib. O, yeni idarənin Xoşbəxtlik Nazirliyi adlanacağını deyib. Əmir twitter səhifəsində bu barədə açıqlama verib. O, BƏƏ-nin inkişafında yeni dövrə hazırlıq məqsədilə yeni nazirliklərin qurulacağını qeyd edib.

Xoşbəxtlik Nazirliyinin əsl hədəfi xoşbəxt bir toplum üçün hökumətin planları, proqramları və siyasəti arasında əlaqəni yaratmaq olacaq.

Onun sözlərinə görə, dünyada bir ilk olan nazirliyin vəzifəsi toplumda hüzuru təmin etməkdən ibarət olacaq. Hökumətə daxil olan yeni nazirliklər arasında - Xoşməram Nazirliyi də var. Bu nazirliyin məqsədi isə BƏƏ toplumuna əsas dəyər olan xoşməramı yaymaqdır. Kabinet İşləri Nazirliyinin adı isə Kabinet və Gələcək Nazirliyi adlanacaq. Bundan başqa, akademik və araşdırmaçılardan ibarət, hökumətdə müşavirlik etmək üçün bir qrup gəncdən ibarət BƏƏ Gənclik Şurası da qurulacaq. Hələlik əl Maktum nazirlərin adları barədə açıqlama verməyib.




QOÇ - Bəri başdan nəzərinizə çatdıraq ki, ixtiyarınıza olduqca məsuliyyətli bir gün düşüb. Belə ki, saat 16-ya qədər çoxlu sayda yeniliklərin şahidi olacaq, maraqlı təkliflər alacaqsınız. Sonra isə diqqətli olun.

BUĞA - Naharaqədərki vaxtı səbrlə başa vursanız, qalan saatlardan xoşagəlməzlik gözləməyin. Çünki ulduzlar bu gün şəxsi işlərinizdə böyük dönüş yaratmaq istəyir. Bunun üçün əzmkarlığınızı artırmalısınız.

ƏKİZLƏR - Ümumi kosmik mənzərə kifayət qədər səmərəlidir. Deməli, bütün vacib planlarınızı yavaş-yavaş həyata keçirməyə başlamalısınız. Amma axşam saatlarında maliyyə məsələləri ilə bağlı ehtiyatlı olun.

XƏRÇƏNG - İlk növbədə səhhətinizə qayğı göstərin. Çünki yalnız sağlam bədəndə sağlam ruh olur. Həmişə başqalarını müzakirə etməkdənsə öz ideya və məramlarınızı analiz edin. Səfərə çıxmayın.

ŞİR - İlahinin verdiyi hər məqama şükür edin, bədgüman olmayın. Çünki bu gün sizi narahat edən əksər sahələrdə - qarşılıqlı münasibətlərdə, maliyyə məsələlərində və fəaliyyətdə müsbət nəticələr əldə edəcəksiniz.

QIZ - Ulduzlar gün boyu maraqlı insanlarla görüşəcəyinizi bəyan edir. Bu, işgüzar əməkdaşlıq da ola bilər, dostluq-yoldaşlıq da. Hətta ürəyiniz sevgisizdirsə, bəxtiniz açıla da bilər. Bu gün səfərə çıxmayın.

TƏRƏZİ - Saat 14-17 arası iştirakçısı olduğunuz situasiyaların əksəriyyəti gərgin fonla müşayiət olunduğundan bütün ciddi işlərinizi təxirə salmağa çalışın. Qalan saatlar normal tərzdə cərəyan edəcək.

ƏQRƏB - İstənilən riskdən uzaq olun, təhlükəlidir. Buna baxmayaraq, ailə-sevgi münasibətlərində, eləcə də kollektivlə davranışda mülayimlik göstərsəniz, işləriniz qaydasına düşəcək. Hətta sürpriz də gözlənilir.

OXATAN - Bir qədər gərgin ərəfə olsa da, proseslərə neytral yanaşmaqla təhlükələri dəf edə bilərsiniz. Saat 16-18 aralığında istənilən riskli sövdələşmələrdən, köhnə qisasçılıq prinsiplərindən əl çəkin.

OĞLAQ - Kifayət qədər düşərli zaman kəsiyindən keçəcəksiniz. Bu prosesi daha ideal səviyyəyə yüksəltmək üçün ətrafınıza sadiq tərəfdaşlar toplamalısınız. Günün "ən varlı" Zodiak işarəsi də məhz siz olacaqsınız.

SUTÖKƏN - Xırda maliyyə problemlərinə görə narahat olmayın. Çünki günün elə ilk saatlarından bu istiqamətdə uğurlarınız bol olacaq. Əsas enerjinizi işgüzar sövdələşmələrə yönəldin ki, perspektivlərinizə yol açılsın.

BALIQLAR - Dünəndən mənfi enerjili Ayın bürcünüzdə qərar tutması onsuz da bədbin olan ovqatınıza bir az da mənfi təsir göstərə bilər. Bu səbəbdən müqəddəs ziyarətgahlarımıza baş çəkməyiniz yaxşı olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 2 milyonluq çaxıra görə özünü öldürdü



Dünyanın ən yaxşı aşpazı olan Benoit Violerin şəraba görə intihar etdiyi məlum olub. Bir neçə gün əvvəl evində ölmüş halda tapılan məşhur aşpaz haqqında maraqlı iddialar irəli sürülüb. Məlumatlara görə, məşhur şef-aşpaz İsveçrədəki lüks restoranı üçün 2 milyon dollar dəyərində şərablar sifariş edib. Bir müddət sonra isə aldadıldığını öyrənib. Pulunu ödəyib ala bilmədiyi şərablara görə maddi sıxıntılarla üzləşən aşpaz restoran işində bacarıqlı olsa da iflas həddinə çatıb. Yüksək maddi itkisi olan şefin bəzi şərablar üçün 39 min dollar ödədiyi məlum olub.

Məlumat üçün bildirək ki, Violerə məxsus olan "Hotel de Villein Crissier" ötən il "dünyanın ən yaxşı restoranı" seçilmişdi.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300